Xalqın qəzeti!

# Xalq qəzeti

№ 266 (30382) 6 dekabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Gələn ilin dövlət büdcəsi həyata vəsiqə aldı

**Dekabrın 5-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının növbəti iclası keçirildi. İclasda Baş nazir Əli Əsədov və hökumət üzvləri iştirak edirdilər.**



S.Qafarova gündəliyə keçməzdən əvvəl deputatlara Milli Məclis Sədrinin rəhbərliyi ilə nümayəndə heyətinin Almaniya Federativ Respublikasına və Çex Respublikasına rəsmi səfərləri barədə qısa məlumat verdi. Hər iki ölkədə aparılan söhbətlərdə ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm təsir göstərən amillərdən biri kimi parlamentlərin qarşılıqlı fəaliyyətinin önəmi qeyd edildi.

Parlamentin Sədri gündəliyə 22 məsələ daxil edildiyini və bu məsələlərin 12-nin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələri olduğunu dedi. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsini Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim etdi. O, bildirdi ki, 2024-ci ilin dövlət büdcəsi layihəsi 1 aydan çoxdur ki, Milli Məclisin komitələrində və plenar iclaslarında geniş və ətraflı müzakirə edilir. Maliyyə və İqtisadiyyat nazirlikləri, Mərkəzi Bankın, Hesablama Palatasının və digər dövlət orqanlarının rəhbərləri və nümayəndələri layihələr barədə həm komitə iclaslarında, həm də plenar iclaslarda ətraflı məlumat veriblər və müzakirələrdə fəal iştirak ediblər.

O, qeyd etdi ki, növbəti ilin dövlət büdcəsinə dair qanun layihəsi Milli Məclisdə müzakirə olunduğu ərəfədə dövlət büdcəsindən maliyyələşən bir sıra qurumların əsasnamələrinin təsdiqi, bəzi təşkilatların strukturlarında müvafiq dəyişikliklərin edilməsi ilə bağlı ölkə Prezidenti tərəfindən müvafiq fərmanlar imzalanıb və tapşırıqlar verilib. Eyni zamanda, sənədin müzakirələri zamanı Milli Məclisin deputatları bir sıra təkliflərlə çıxış ediblər. Bununla əlaqədar olaraq 2024-cü ilin dövlət büdcəsinin xərcləri çərçivəsində qanun layihəsində bəzi dəyişikliklərin edilməsi məqsədəuyğun hesab olunur.

Komitə sədri nəzərdə tutulan dəyişikliklər barədə məlumat verərkən dedi ki, yeni Ağdərə rayonunun təsis edilməsi ilə bağlı qanun layihəsinin 9-cu maddəsinə həmin rayonun adı əlavə edilir. Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində yeni yaradılmış "Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsin fəaliyyəti üçün dövlət sifarişi əsasında tələb olunan 7,3 milyon manat vəsait Agentliyin əsas fəaliyyəti üçün "Kənd təsərrüfatı" xərc bölməsində nəzərdə tutulmuş vəsaitdən 7,3 milyon manat azaldılaraq, həmin tədbirin maliyyə təminatı üçün "Elm xərcləri" bölməsinə yönəldilir. Qeyd olunub ki, 2023-cü ildə minimum əmək haqqının artımı ilə bağlı əlavə olaraq Bakı şəhərinin yerli xərcləri 2,3 milyon manat, Laçın rayonunun yerli xərcləri isə 100 min manat artırılır. O, təqdim olunmuş büdcə zərfində inzibati təsnifata uyğun olaraq bəzi dəyişikliklərin də edilməsi üçün zərurət yarandığını söyləyib.

*(ardı 6-cı səhifədə)*

## Fransa müstəmləkəsində fransızsayağı zorakılıq

*Azərbaycanın media qurumları AZƏRTAC-ın əməkdaşına qarşı nalayiq rəftarı pisləyən bəyanatlar yayıb*

**Azərbaycan Mətbuat Şurası fransız müstəmləkəsi Yeni Kaledoniyaya ezam olunmuş AZƏRTAC-ın əməkdaşı Aygün Həsənovaya qarşı özbaşınalıqla bağlı bəyanat yayıb.**

Bəyanatda bildirilib ki, fransız müstəmləkəsi Yeni Kaledoniyada yerli polisin ora ezam olunmuş Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) əməkdaşı Aygün Həsənovaya münasibətdə nalayiq, qəddar rəftarı, ona qarşı qanunsuz davranışı – Şengen vizası olmasına baxmayaraq, əsassız tələblər irəli sürməsi Fransanın söz və ifadə azadlığına dözümsüzlüyünün aşkar göstəricisi, növbəti bariz nümunəsidir. Baş vermiş hadisə bir daha təsdiqləyir ki, özünü dünya demokratiyasının beşiyi sayan Fransa ali dəyər və priniplərə, qətiyyən, məhəl qoymur.

"Yeni Kaledoniya polisinin hərəkəti qəbuledilməzdir, tam yolverilməzdir. AZƏRTAC-ın əməkdaşının saxlanılması, həbslə hədələnməsi, "arzuolunmaz şəxs" kimi təyyarəyə mindirilərək, digər ölkəyə yola salınması jurnalistin sərbəst fəaliyyətinin qarşısının qeyri-qanuni yolla alınmasıdır. Belə yanaşma yalnız diktatura rejiminə xas ölkələr üçün xarakterikdir. Düşünməyə əsas var ki, ümumən prezident Emmanuel Makronun administrasiyası Yeni Kaledoniyada, belə demək mümkünsə, avtoritarizm ocağı qurmaqdadır. Bu isə Fransa adına da son dərəcə utancverici durumdur", – deyə sənəddə vurğulanıb.

Bəyanatda eyni zamanda bildirilib ki, Yeni Kaledoniya xalqının zülmdən qurtulmaq, azadlığına qovuşmaq uğrundakı mücadiləsini işıqlandırmaq üçün ora səfər etmiş AZƏRTAC-ın əməkdaşı özünün peşə borcunu yerinə yetirmək istəyirdi: "Azərbaycan Mətbuat Şurası hesab edir ki, ona qarşı aşkar qanunsuzluq bütövlükdə dünyanın media ictimaiyyətini düşündürməlidir.

*(ardı 8-ci səhifədə)*

## ABŞ və Fransanın canfəşanlığı – Ermənistana bütün sahələrdə dəstək




**Qərb dünyası Ermənistanda müxtəlif infrastruktur layihələrinin inkişafı üçün hərtərəfli plan hazırlayır. Bu işdə Fransa və ABŞ-ın aktivliyi daha çox nəzərə çarpmaqdadır. Söhbətimizə bu məsələdə Fransanın rolunu qabartmaqla başlamaq istərdik.**

Qeyd edək ki, haqqında söz açdığımız planın həyata keçirilməsində Fransa İnkişaf Agentliyi həlledici rol oynayır. Məsələ barədə ölkənin İrəvandakı səfiri Olivye Dekottini Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri Qnel Sanosyanla görüşündə bildirib. Səfir Dekottini deyib ki, həm əməkdaşlığın əhatə dairəsi, həm də ayrılan büdcə yaxın vaxtlarda genişləndirilməlidir. Görüşdə Vedi su anbarının tikintisinin davam etdirilməsinə, bununla əlaqədar görülən işlərə də toxunulub.

*(ardı 3-cü səhifədə)*

## O'Brayn diplomatında Bakıya nə gətirir?



**ABŞ həm coğrafi, həm də siyasi baxımdan Azərbaycandan çox uzaqdadır. Doğrudur, müasir elektron texnologiya on min kilometrlərlə aralıdakı obyekti, yaxud subyekti yanımıza, hətta ayağımıza gətirməyə qadirdir. Amma bu zaman unutmayaq ki, Bakı ilə Vaşinqton arasında okean da var...**

Okeanın o tayındakı supergücün sükanı arxasında demokratların və ya respublikaçıların durmasından, yaxud Konqresdə üstünlüyün hansı siyasi qüvvənin tərəfində olmasından asılı olmayaraq, hakimiyyət elitası üçüncü dünya ölkələrinə qarşı daim ikili standartlı və riyakar diplomatiyaya sadiq qalıb. Bu da bir həqiqətdir ki, güclülər heç vaxt öz səhvlərini boyunlarına almırlar. Fəqət bəzi məsələlərdə olduğu kimi, burada da istisnalar mövcuddur.

ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenlə Azərbaycan Prezidenti İlham Əliyev arasında keçən ay baş tutan məlum telefon söhbətinin ardınca Vaşinqton Bakıya qarşı münasibətində yol verdiyi yanlışlığı, dolayısı ilə olsa da, etiraf edib. A.Blinkenin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi, Senatda anti-Azərbaycan çıxışı ilə "tarixə düşmüş" Ceyms O'Braynın bu gün reallaşacaq Bakı səfərini məhz həmin etirafın təzahürü saya bilərik.

*(ardı 4-cü səhifədə)*

## Riçard Kirakosyanın xam xəyalları

**Ermənistan–Azərbaycan münasibətləri, regionda cərəyan edən proseslər və digər məsələlərlə bağlı erməni politoqlarının, siyasi ekspertlərinin fikirləri ilə tanış olduqda heyrətlənməmək mümkün deyil. Aydın olur ki, İkinci Qarabağ müharibəsinin başa çatmasından üç ildən çox, lokal xarakterli antiterror tədbirlərindən isə üç aya yaxın vaxt ötsə də bu insanlar hələ də Qarabağ "sevdasındadırlar". Hələ də Azərbaycanın regionda yaratdığı reallıqları tam dərk etməyiblər. Başlarında revanşizm kabusu dolaşır. Hələ də xam xəyallarda yaşayırlar. Nə vaxtsa, hansısa "x" günündə başlayacaq müharibədə Azərbaycanı məğlub edə biləcəklərini düşünürlər. Hayastanda belələri çoxdur. Onlardan biri də politoloq, Regional Araşdırmalar Mərkəzinin direktoru Riçard Kirakosyandır.**

Ölkənin "CivilNet" media qurumunun "YouTube" videohostinqindəki kanalı politoloq, Regional Araşdırmalar Mərkəzinin direktoru Riçard Kirakosyanın müsahibəsini dərc edib. O, aparıcının Ermənistanın geosiyasi durumu ilə bağlı suallarını cavablandırıb. Müsahibəni izləyəndən sonra ağla gələn ilk fikir bundan ibarətdir ki, ingilis dilində səlist nitqinə, düzgün cümlələr qurmağına baxmayaraq, hətta zahirən hörmətli, pasifist (müharibə əleyhdarı) kimi görünən analitik mərkəzin rəhbəri belə öz mülahizələrində xam xəyaldan qurtula bilmir. Kirakosyan reallığı əhəmiyyətli dərəcədə təhrif edən və buna görə də müəyyən çaşqınlıq yaradan bir sıra müşahidələr aparıb.

*(ardı 3-cü səhifədə)*

## Orta Dəhlizdə konteyner daşımaları artıb



Səhifə ⇨ 7

## Azəri – Mərkəzi – Şərqi yatağında ilk quyu



Səhifə ⇨ 7

# Tailandın Kralı Əlahəzrət Maha Vajiralongkorn Phra Vajiraklaochaoyuhuaya

**Əlahəzrət,**

Tailand Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi arzularımı yetirirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Tailand Krallığının dost xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 dekabr 2023-cü il**

# Şuşa – Laçın avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Qırx bir kilometr uzunluğu olan Şuşa–Laçın avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 6,0 (altı) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 dekabr 2023-cü il**

# Prezident Administrasiyasında Türkiyə Ədalət və İnkişaf Partiyasının nümayəndə heyəti ilə görüş

**Dekabrın 5-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin Xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Ədalət Vəliyev Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Qələbə nəticəsində və lokal xarakterli antiterror tədbirlərinin keçirilməsi ilə Azərbaycanın suverenliyini bərpa etdiyini, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı və məqsədyönlü bərpa-quruculuq işlərinin sürətlə davam etdirildiyini qonaqların diqqətinə çatdırıb. Qazanılmış Qələbədə Türkiyənin mənəvi-siyasi dəstəyinin əhəmiyyətindən bəhs edən şöbə müdiri Azərbaycan ilə Türkiyə arasındakı strateji müttəfiqlik münasibətlərinin dünyada bənzərsiz olduğunu, hər iki tərəfin çoxşaxəli əməkdaşlığı dərinləşdirmək iradəsini nümayiş etdirdiklərini bildirib.

Ədalət Vəliyev dövlət başçılarının siyasi iradələrinə uyğun olaraq Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlığın daha da dərinləşdiyini, iki hakim partiyanın əlaqələrinin gücləndirilməsinin ölkələrarası münasibətlərin inkişafına mühüm töhfə verdiyini, 2021-ci ildə YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələrək ikitərəfli münasibətlərin inkişafına xidmət edən məqsədyönlü fəaliyyəti vurğulayıb.

Zafer Sırakaya iki partiya arasında əlaqələrin inkişafının dövlətlərarası münasibətlərin mühüm elementi olduğunu, davamlı xarakter daşıyan qarşılıqlı səfərlərin həyata keçirilməsinin partiyalararası təmasların gücləndirilməsində mühüm əhəmiyyət kəsb etdiyini, Azərbaycanın tarixi Qələbəsi nəticəsində regional təhlükəsizlik və əməkdaşlıq üçün mühüm imkanlar yarandığını diqqətə çatdırıb.

Görüşdə, həmçinin Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iştirak edib.

# Prezidentin köməkçiləri və nazirlər STEAM Azərbaycan Festivalında

**Dekabrın 5-də Prezidentin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov, Prezidentin köməkçisi – Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, elm və təhsil naziri Emin Əmrullayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, mədəniyyət naziri Adil Kərimli, müdafiə sənayesi naziri Vüqar Mustafayev Bakı Ekspo Mərkəzində olublar.**



Qonaqlar SAF 2023 – Beynəlxalq STEAM Azərbaycan Festivalı çərçivəsində keçirilən yarışların gedişatı ilə tanış olub, iştirakçılara uğurlar arzulayıblar.

Festival çərçivəsində təşkil edilən "İnnovativ layihələr" sərgisi ilə yaxından tanış olan qonaqlara məlumat verilib ki, festivalın final mərhələsində 11 ölkəni təmsil edən 868 yerli, 159 xarici iştirakçı yarışır.

Qeyd edək ki, festival dekabrın 8-dək davam edəcək.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 436** **Bakı şəhəri, 5 dekabr 2023-cü il**

***1 və 2 nömrəli Ailə tipli kiçik qrup evlərinin və uşaq evi sosial xidmət müəssisələrinin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin tabeliyinə verilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın 7.11-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan 1 və 2 nömrəli Ailə tipli kiçik qrup evləri, Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Bakı şəhəri üzrə Nizami rayonu 1 nömrəli uşaq evi, Suraxanı rayonu 2 nömrəli uşaq evi, Xətai rayonu 3 nömrəli uşaq evi, Gəncə Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Gəncə şəhər məktəbəqədər və məktəb yaşlı uşaqlar üçün qarışıq tipli uşaq evi, Şəki Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Şəki şəhər qarışıq tipli uşaq evi, Lənkəran Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Osman Mirzəyev adına qarışıq tipli uşaq evi sosial xidmət müəssisələri ştat vahidləri və onlara məxsus əmlakla birlikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin tabeliyinə verilsin.

**2.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

2.1. bu Qərarın 1-ci hissəsinə əsasən Sosial Xidmətlər Agentliyinin tabeliyinə verilmiş sosial xidmət müəssisələrinin əsasında Sosial Xidmətlər Agentliyinin tabeliyində müvafiq publik hüquqi şəxslərin yaradılması üçün iki ay müddətində zəruri tədbirlər görülməsini təmin etsin;

2.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Gəncə Şəhər İcra Hakimiyyəti, Şəki Şəhər İcra Hakimiyyəti və Lənkəran Şəhər İcra Hakimiyyəti bu Qərardan irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 433** **Bakı şəhəri, 4 dekabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər"də dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 464; 2007, № 8, maddə 852, № 12, maddə 1336; 2008, № 1, maddə 39; 2014, № 7, maddə 935; 2015, № 1, maddə 63, № 5, maddə 670; 2018, № 4, maddə 823; 2019, № 4, maddə 755; 2023, № 6, maddə 841, № 9, maddə 1335) ilə təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər"in "Qeydlər" hissəsinin 5-ci bəndindən "3-cü (kosmik-peyk rabitə vasitələrinin istehsalı və istismarı)," sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 434** **Bakı şəhəri, 4 dekabr 2023-cü il**

***"Elektron kredit və zəmanət" informasiya sisteminin Əsasnaməsi"nin təsdiq edilməsi haqqında***

"İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahib-karların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Elektron kredit və zəmanət" informasiya sisteminin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi "Elektron kredit və zəmanət" informasiya sisteminin (bundan sonra – informasiya sistemi) "Hökumət buludu"nda yerləşdirilməsi üçün texnoloji mühiti təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

3.1. informasiya sistemini mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etsin və həmin informasiya sisteminin təhlükəsizlik meyarları üzrə monitorinqini həyata keçirsin;

3.2. informasiya sisteminin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə zəruri tədbirlər görsün.

**4.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlə-rinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın tələbləri nəzərə alınmaqla, informasiya sisteminin Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə zəruri tədbirlər görsün.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# "Elektron kredit və zəmanət" informasiya sisteminin əsasnaməsi təsdiq edilib

## *Nazirlər Kabinetinin 434 nömrəli Qərarına dair izah*

Qərar "Elektron kredit və zəmanət" informasiya sisteminin formalaşdırılmasının, aparılmasının, arxivləşdirilməsinin, eləcə də digər dövlət informasiya sistemləri və ehtiyatları ilə Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə inteqrasiyasının hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

Qeyd olunan informasiya sisteminin tətbiqi işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına cıxış imkanlarının genişləndirilməsinə və bu ərazilərə investisiya qoyuluşunun canlanmasına, eləcə də informasiya kommunikasiya texnologiyalarının imkanlarından faydalanaraq tələb olunan sənəd və məlumatları real vaxt rejimində əldə etməklə sərf olunan vaxta və xərclərə qənaət olunmasına, bank, sahibkar və fond arasında məlumat mubadiləsinin surətləndirilməsinə və nəzarət mexanizminin gücləndirilməsinə səbəb olacaqdır.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 435** **Bakı şəhəri, 4 dekabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət torpaq kadastrı fondunun yaradılması, istifadəsi və mühafizəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Torpaq islahatı haqqında", "Energetika haqqında", "Torpaq icarəsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 895-VIQD nömrəli Qanununun tətbiqi və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 2218 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 6, maddə 373, № 11, maddə 654; 2000, № 2, maddə 116; 2001, № 1, maddə 70, № 5, maddə 350; 2002, № 11, maddə 675; 2006, № 11, maddə 994; 2009, № 10, maddə 846; 2015, № 10, maddə 1223, № 11, maddə 1411; 2016, № 10, maddə 1708; 2017, № 4, maddə 657, № 5, maddə 965; 2018, № 3, maddə 629; 2020, № 10, maddə 1302; 2021, № 11, maddə 1284; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 noyabr tarixli 411 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət torpaq kadastrı fondunun yaradılması, istifadəsi və mühafizəsi haqqında Əsasnamə"nin III bölməsinin 5-ci hissənin on birinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on ikinci abzas əlavə edilsin:

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələ-rindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikasının bərpa olunan enerji mənbələrinin potensialı atlasının formalaşdırılması və aktuallığının təmin olunmasında.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# ABŞ və Fransanın canfəşanlığı – Ermənistana bütün sahələrdə dəstək

## Qərbin Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq planı və erməni avantürizminin körüklənməsi

*(əvvəli 1-ci səhifədə)*

Deməli, Fransa Ermənistana daha geniş əməli dəstək göstərməyə keçib. Ancaq bildirdiyimiz kimi, bu işdə ABŞ da ondan geri qalmır. Belə ki, Birləşmiş Ştatlar Konqresinin sessiyasında ölkənin Beynəlxalq İnkişaf Agentliyinin– USAID-in təmsilçisi Aleksander Sokolovski qurumun Ermənistanın infrastrukturuna potensial investisiya qoyuluşuna maraq göstərdiyini vurğulayıb. Yəni, Vaşinqton da İrəvanın dayanıqlılığını gücləndirməkdə maraqlıdır. Nə üçün? Ona görə ki, onun Rusiyadan asılılığı aradan qalxsın.

Bəli, ABŞ Ermənistanın Rusiyadan asılılığını aradan qaldırmaq, hələlik isə heç olmasa, azaltmaq üçün enerjidən kənd təsərrüfatına qədər müxtəlif sektorlarda fəal iştirak əzmindədir. Ölkə var gücü ilə Ermənistandakı Rusiya monopoliyalarına alternativlər yaratmağa çalışır. Bura ticarət, enerji və infrastruktur, eləcə də həyati vacib informasiya sistemləri və hətta kənd təsərrüfatı daxildir. A.Sokolovskinin sözlərinə görə, USAID ABŞ Dövlət Departamenti ilə Ermənistana dəstək üzrə əməkdaşlıq gerçəkləşdirməkdir. Əməkdaşlığın konkret hədəfi isə ölkənin Rusiya buğdası və unundan asılılığının azaldılmasıdır. Mövcud istiqamətdə potensial addımlar barədə müzakirələr başlayıb. Bundan əlavə, ABŞ-ın, Avropa İttifaqının və Ermənistanın iştirakı ilə sonuncunun Qərbə inteqrasiyasını asanlaşdırmaq yolunda müvafiq sxemin yaradılmasını nəzərdə tutan diskussiyaların təşkilindən də məlumatımız var.

Bəli, Fransa və ABŞ Ermənistanda fəaliyyət göstərən və Rusiya tərəfindən dəstəklənən şirkətlərə güclü alternativlər yaratmağa girişiblər. Ancaq proses çox çətindir və Qərbin Ermənistan aktivliyinin səhvi istiqamətləri fonunda, həmin çətinliyin nədən ibarət olduğunun fərqinə varırıq. Əlavə edək ki, Rusiya kapitalı Ermənistanın dəmir yolu şəbəkəsinə, atom elektrik stansiyasına və mühüm telekommunikasiya şirkətlərinə də nəzarəti həyata keçirməkdədir. Yəni, Ermənistanın strateji infrastrukturu böyük ölçüdə Rusiyanın nəzarəti altındadır. Bu sıraya rus hərbçilərinin Ermənistan–Türkiyə və Ermənistan–İran sərhədlərini qorumasını da daxil etmək mümkündür.

Üstəlik, Ermənistanın qaz tədarükü də Rusiyadan asılıdır, həmçinin ölkənin elektrik şəbəkələri ilə bağlı şirkəti erməni biznesmen Samvel Karapetyana məxsus olsa da, bu şəxsin Moskvanın maraqları ilə oturub-duran biri olduğu hər kəsə yaxşı məlumdur. Hazırda ölkənin hökumətyönümlü dairələri S.Karapetyanın Rusiyanın elektrik enerjisi sektorunda manipulyasiyasına qoşularaq, Ermənistana problemlər yarada biləcəyindən narahatdırlar.

Amerikalıların çalışdığı isə budur ki, Ermənistanın enerji bazarı liberallaşsın. Birləşmiş Ştatlar hazırda ölkədə yeni atom elektrik stansiyasının tikintisi ilə bağlı müzakirələr aparır və bu layihəyə dair tezliklə yekun qərarın veriləcəyi bildirilir. Əvvəllər Fransa hazırda Rusiyanın "Cənubi Qafqaz Dəmir Yolları" şirkətinin nəzarətində olan Ermənistan dəmir yolunun alınmasında maraqlı olduğunu bildirsə də, məsələnin gerçəkləşəcəyindən danışmaq tez kimi görünür. Ancaq fransız şirkəti ölkənin içməli su paylayıcı şəbəkəsini idarə etməkdədir.



İndi Ermənistanın hakim siyasi dairələri bu qənaətdədirlər ki, Qərb Rusiyanın hökmranlıq etdiyi bütün strateji sahələrdə ciddi rəqib kimi meydana çıxmalı və rus kapitalını aktiv şəkildə sıxışdırmalıdır. Ümidlər var ki, Fransa və ABŞ rəsmiləri tərəfindən mövcud istiqamətdə verilən vədlər konkret nəticələrə çevriləcək. Erməni siyasilər, eyni zamanda, bildirirlər ki, Ermənistandan Rusiya kapitalının sıxışdırılması ilə yanaşı, strateji infrastruktur əhəmiyyətli sahələrə Qərb investisiyalarının yatırılmasına ehtiyac var. Bu yolla Moskvanın İrəvana təzyiqini aradan qaldırmağın və birinci çətinlik yaratma alətlərindən məhrum etməyin hər şeydən vacib olduğuna dair fikirləri bölüşənlərin də sayı yetərincədir.

Onu da deyək ki, bəzi siyasi analitiklər və ekspertlər Rusiyanın Ermənistanda hərbi təhlükəsizlik sahəsindəki monopoliyasının itirdiyini vurğulayırlar. Nəzərə alaq ki, 2011–2020-ci illər arasında Rusiya Ermənistanın hərbi arsenalının 95 faizini təmin edib. İndi ölkəyə artıq silah vermir. İrəvan hazırda Hindistan, Fransa və digər ölkələrlə əlaqələr vasitəsilə silah idxalını şaxələndirib, üstəlik özünün silahlı qüvvələrində islahatların aparılmasına dəstək üçün ABŞ və Fransa ilə razılaşmalar əldə edib.

Bəli, Paris İrəvanın müdafiə silahları ilə təchizatını həyata keçirməkdədir. Ermənistan hakimiyyətinin bütün müraciətlərinin, xüsusən də artilleriya ehtiyaclarının dərhal cavablandırılmasının vacibliyini bildirən fransız senatorlar bu günlərdə hökumətə İrəvanın SEZAR artilleriya sistemləri ilə təminatının qiymətləndirilməsini tövsiyə ediblər. O da məlumdur ki, Fransa Ermənistana ölkənin hava hücumundan müdafiə sistemindəki zəiflikləri öyrənməkdə və müəyyənləşdirməkdə kömək göstərəcək. Senatın müvafiq komitəsində 2024-cü il büdcəsinin müzakirəsi zamanı Fransanın müdafiə naziri Sebastyan Lekornyu ölkəsinin İrəvanı müdafiə silahları ilə təmin edəcəyini açıqlayıb.

Yekunda ümumiləşdirmə apararaq deyə bilərik ki, Ermənistan hakimiyyəti hazırda Qərbin Rusiyanı Cənubi Qafqazdan effektiv şəkildə sıxışdırıb çıxarması üzərinə oyun oynamaqdadır. Əlbəttə, bu oyun çox təhlükəlidir. Mövcud xüsusda ölkəyə müdafiə, enerji, iqtisadi, siyasi, ərzaqla təminat, texnologiya və strateji infrastruktur imkanları ilə bağlı dəstək göstərilməsinin mütləqliyi üzərində dayanılır. Bir sözlə, Ermənistan Qərbə "mənə hər şey ver" deyir. Hələ bir şərt də qoyulur ki, yalnız bundan sonra Ermənistan həqiqətən də strateji dəyişikliyə nail ola bilər. Təxminən belə: "əvvəl əsiri zəncirdən azad et, sonra özü ayaq üstündə dayanar".

Kənardan görünən mənzərədə Ermənistan hakimiyyəti, obrazlı desək, məzənnəsini qaldırmaq istəyən əxlaqsızı xatırladır. Gözü görən, bir balaca ağlı kəsən hər şeyi istəyir. Əlbəttə, atalarımızın "quyuya su tökməklə sulu olmur" misalının aktuallığını vurğulamaqdan uzağıq. Əsas olan Qərbin dəyərləndirməsidir. Görünür, özünün qlobal maraqlarını reallaşdırmaq istəyən Qərb dünyası Ermənistan üzərinə siyasi sərmayə yatırmaqla böyük səhvə yol verdiyinin fərqində deyil. Bu avantürizm Cənubi Qafqaza heç bir halda dinclik gətirməyəcək. Dinclik və əminamanlığın olmaması isə Qərbin Ermənistana səxavətlə yatırdığı və daha çox yatırmağa çalışdığı kapital üçün böyük təhlükədir.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Riçard Kirakosyanın xam xəyalları

## Reallıqdan qorxanların xəyal dünyasında yaşamaları təbiidir

*(əvvəli 1-ci səhifədə)*

Onun müsahibəsinin leytmotivi kimi səslənən əsas tezis bundan ibarətdir ki, Ermənistanın revanş kursu götürməsi üçün əvvəlcə Azərbaycan zəifləməlidir. Buna uyğun olaraq, Ermənistan güclənməlidir. Kirakosyan ölkəsinin güclənməsini açıq şəkildə Rusiyadan uzaqlaşmaqda və Qərbə inteqrasiyada gördüyünü bildirib. Azərbaycanın zəifləməsini isə bir neçə amildə təsəvvür edib. Kirakosyan Azərbaycanda "daxili partlayışı" ölkəmizin zəifləməsinə səbəb olan əsas amillərdən biri adlandırıb: "Qarabağ və Ermənistanın gələcəyi İrəvandan yox, Azərbaycanda baş verəcək partlayışdan (?) asılıdır. Azərbaycanda qeyri-sabitlik perspektivi Qarabağın qaytarılması üçün yeganə müsbət ssenaridir".

Kirakosyan, eyni zamanda, auditoriyaya "heyrətamiz" fakt da açıqlayır: guya, Azərbaycanın Türkiyə ilə münasibətləri 44 günlük müharibədən sonra pisləşir. Digər tezis isə bundan ibarətdir ki, guya, Qarabağda rus sülhməramlılarını aşağıladığına görə (?) Rusiyada Azərbaycana qarşı kin var və V.Putin onun bütün vaxtını alan Ukrayna məsələsindən qurtulan kimi ölkəmiz Rusiyanın hərbi təcavüzünün qurbanına çevriləcək.

Daha sonra Kirakosyan ümid edir ki, ABŞ regional kommunikasiyaların Ermənistan ərazisindən keçməsini təmin edə biləcək. Bu, Ermənistanın iqtisadi müstəqilliyinə töhfə verəcək və "çəkindirmə" şansını artıracaq.

Göründüyü kimi, R.Kirakosyan reallıqları xeyli təhrif edib. Bənzər tezisdən Ermənistanın baş naziri Nikol Paşinyan da hələ hakimiyyətə gəldiyi ilk dövrlərdə istifadə etmişdi. O, Azərbaycan cəmiyyətində parçalanma yaradacağına ümid etdiyini bildirmişdi. Bu istiqamətdə açıqlamalar verən Paşinyan sonradan Azərbaycanda xalqla hakimiyyət arasında möhkəm bağlılığın olduğunu gördükdən sonra siyasətindən əl çəkməli oldu. Görünür, R.Kirakosyan həmin tarixdə yaşananları diqqətlə izləməyib. İzləsəydi, bu gün belə fikirlər səsləndirməzdi.

Siyasi analitik Rusiya–Azərbaycan və Türkiyə–Azərbaycan münasibətləri barədə də reallığı deyil, arzularını dilə gətirib. Məsələ ondadır ki, son illərdə Rusiya–Azərbaycan



münasibətləri xeyli inkişaf edib. İki ölkə arasında tarixən formalaşmış sıx münasibətlər bu gün bütün sahələri əhatə edir. 2022-ci il fevralın 22-də Moskvada Prezident İlham Əliyev və Prezident Vladimir Putin tərəfindən "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalanıb. 43 bənddən ibarət həmin bəyannamə münasibətləri ən üst səviyyəyə qaldırıb.

Türkiyə–Azərbaycan münasibətləri isə hazırda özünün ən parlaq dövrünü yaşayır. Münasibətlərin zirvəyə qalxmasının ən mühüm göstəricisi Şuşa Bəyannaməsidir. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" 2021-ci il iyunun 15-də Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın Şuşada keçirilən təkbətək görüşündən sonra imzalanıb. Türkiyə–Azərbaycan münasibətlərinin Vətən müharibəsindən sonra pisləşdiyini iddia etmək, sadəcə, siyasi savadsızlıq, primitivlik və nadanlıqdır.

Mövzu ilə bağlı "Caliber.az" saytının şərhində qeyd olunub ki, Kirakosyanın hiyləgərliyi diqqəti cəlb edir: "Bəli, Kirakosyanın tezisləri reallığı əks etdirmir, amma, o, istəyini dilə gətirib. Deməli, Qərbyönümlü erməni ekspert icması və bu icmanın hakimiyyətə yaxınlığını nəzərə alaraq rəsmi İrəvan aşağıdakı hadisələri gözləyir: 1. Moskva ilə Ankara arasında çəkişmələr. 2. Bakı ilə Ankara arasında ixtilaf. 3. Rusiyanın Azərbaycana qarşı "qisası". 4. Azərbaycanın daxilində "partlayış". 5. Azərbaycanla rabitənin İrəvanın suveren nəzarəti altında bərpası. Onlar bunu, sadəcə, gözləmirlər, həm də bu hadisələrin mümkün qədər tez baş verməsini təmin etmək üçün çalışırlar".

Qeyd olunub ki, Ermənistanın özünün bu arzusunu reallaşdırmaq üçün açıq-aydın kifayət qədər resursları olmasa da, onun himayədarlarının bunun üçün kifayət qədər pulu və ən əsası, təcrübəsi var: "Riçard Kirakosyanın ABŞ vətəndaşı və görünür, bu ölkənin agenti olduğunu, Ermənistanın Qərb institutlarına inteqrasiyası üçün fəal lobbiçilik etdiyini və Paşinyana yaxınlığını nəzərə alsaq, regionun sabitliyini pozmaq üçün xaricdən hansı resurslardan istifadə ediləcəyi qənaətinə gəlmək olar. Bu, xüsusilə Azərbaycanın daxilindəki situasiyaya aiddir. Amma, gündəlikdəki digər məsələlərlə bağlı da müəyyən işlər görülür. Məsələn, Vaşinqton İrəvanın şərtləri ilə inşa etməyə çalışır. Bəs, Vaşinqton Ankara ilə Bakı arasında mübahisə yarada bilərmi? İnanılmaz səslənir, lakin hipotetik olaraq mümkündür. Düşünürük ki, həm Bakı, həm də Ankara bu təhlükələrdən xəbərdardır. Bu günün reallığı ondan ibarətdir ki, iki qardaş ölkə arasında münasibətlər tarixi zirvədədir. Şuşa Bəyannaməsi faktiki olaraq iki dövlətdən birinə təcavüz olarsa, qarşılıqlı hərbi yardıma zəmanət verir. Bu inteqrasiya prosesinin tərsinə dönməsi üçün bizim bədxahlarımız tektonik dəyişikliklərə başlamalı olacaqlar".

Yeri gəlmişkən, bu günlərdə İrəvanda tarixin arxivinə gömülmüş qondarma rejimin "parlamentinin iclası" baş tutub. Tədbir gizli şəkildə keçirilib. Bu barədə "rəsmi" məlumat yoxdur. Bütün "deputatlar" iştirak edib, "parlamentə" 2 yeni "deputat" qəbul olunub. Bu barədə isə rusiyalı publisist Sergey Karnauxov öz "Teleqram" kanalında məlumat yayıb. Qeyd olunub ki, "iclas zamanı "artsax"dan olan qaçqınların" beynəlxalq platformalar vasitəsilə evlərinə qayıtmasına nail olmaq üçün "işçi qrupu" yaradılıb.

Həm R.Kirakosyanın müsahibəsindəki fikirlər, həm də qondarma rejimin "deputatları"nın yığıncağı müəyyən qüvvələrin fəallaşmasının göstəricisidir. Onların fəallığı qarşısında duran əsas maneələr dövlətçiliyimizin möhkəmlənməsi, silahlı Qüvvələrimizin güclənməsi, Azərbaycan rəhbərliyinin dərin strateji baxışı, qardaş Türkiyə ilə müttəfiqliyin daha da möhkəmlənməsi, Rusiya, İran və Gürcüstanla tərəfdaşlıq əlaqələrinin inkişafıdır. Bu yolda, necə deyərlər, nəfəs dərmək olmaz. Üçüncü qüvvələrin Cənubi Qafqaz regionunda sabitliyi pozmasının qarşısını almaq, üstəlik, bunu fəal şəkildə aparmaq lazımdır. Ölkəmiz indiyədək buna nail olub. Bundan sonra da belə olacağı şübhəsizdir.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Rizvan HÜSEYNOV,**
**hərbi-siyasi şərhçi**

Riçard Kirakosyanın keçmişdə verdiyi bir açıqlamanın təhlili onun güclü analitik qabiliyyətə malik şəxs olmadığını sübut edir. O, 2015-ci ildə Ermənistan silahlı qüvvələrinin müdafiə qabiliyyətinin Azərbaycanın hücum imkanlarından qat-qat üstün olduğunu bəyan etmişdi. 2016-cı ilin aprelində baş vermiş dördgünlük müharibədə məğlubiyyətə uğrayandan dərhal sonra isə Kirakosyan bildirmişdi ki, Ermənistan, ilk növbədə, müdafiə sistemində islahatlar həyata keçirməlidir. Burada söhbət keyfiyyət, kəmiyyət və müdafiə mövqelərindən gedir. Onun yerinə digər ekspert olsaydı, belə bir fiaskodan sonra utanaraq peşəsini dəyişmək barədə fikirləşərdi. Ancaq Kirakosyan heç nə olmamış kimi davranır və erməni auditoriyasını yalan vədlərlə qidalandırmaqda davam edir.

Budəfəki müsahibəsində də o, ziddiyyətli fikirlər səsləndirir. Hətta, Azərbaycan Ordusunun zəif olduğunu, lakin 2016-cı ildən sonra hər şeyin dəyişdiyini iddia edir. Ancaq həmiyə aydın idi ki, 2016-cı ilin Aprel döyüşlərində əldə olunan uğurlar artıq Azərbaycan Ordusundakı dəyişikliklərin, silahların müasirləşdirilməsinin nəticəsi idi. Bu, yalnız özünü analitik kimi göstərib, reallıqda isə hərbi işlərdən xəbərsiz olan Kirakosyana məlum deyilmiş.

# O'Brayn diplomatında Bakıya nə gətirir?

## Bu, Ağ Ev rəsmisinin məlum telefon danışığından sonra regiona ilk səfəridir



*(əvvəli 1-ci səhifədə)*

**Tanınmış siyasi icmalçı Fikrət Sadıxova görə, ABŞ indiki məqamda Bakıya müəyən mənada özünün təəssübkeşliyini bildirir:** "Konqresdəki məlum müzakirə və qərardan sonra Antoni Blinkenin Bakıya zəngindən belə aydın olurdu ki, ABŞ sadəcə Ermənistana dəstəyi imitasiya edib. Eyni zamanda, dövlət başçımızın Azərbaycan rəsmilərinin də Vaşinqtona səfərlərinə qadağanın aradan qaldırılması ilə bağlı tələbi qəbul



edildi. Təbii ki, Azərbaycan ABŞ-la düşmənçilik etmək niyyətində deyil. Bunu rəsmi Vaşiqtonun diqqətinə çatdırdıq. İkitərəfli münasibətlərin isə bizim maraqlarımıza zidd olmayan yolla normallaşdırmağa hazır olduğumuzu bildirdik".

Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması məsələsində ABŞ-dan da çox şeyin asılı olduğunu bildirən politoloq Ağ Evin moderator kimi obyektiv mövqedə dayanmalı olduğunu və reallığı qəbul etməyini önə çəkdi: "ABŞ sülhə aparan yolu düzgün göstərməlidir. Çünki Azərbaycanın Ermənistana güzəştə getmək limiti tükənib. Yəni, bundan sonra heç bir güzəştdən söhbət gedə bilməz. Bu, başqa bir reallıqdır. Bakı təklif etdiyi saziş layihəsinə qeyd-şərtsiz və tələbsiz imza atmağa hazırdır. Ermənistan isə Azərbaycanla münasibətləri normal, sivil qaydada bərpa və inkişaf etdirməyə qadir olduğunu nümayiş etdirməlidir. Həm də, soydaşlarımızın Qərbi Azərbaycana qayıtmasına şərait yaradılmalıdır. Bu konkret məsələnin həlli məhz Ermənistandan asılıdır. Düşünürəm ki, əgər Ağ Ev bu məsələlərə obyektiv yanaşmaq istəyirsə Cənubi Qafqazdakı prioritetlərinə yenidən baxmalıdır".

* * *

**Politoloq Tofiq Abbasovun fikrincə, ABŞ özündən zəiflərə həmişə yuxarıdan-aşağı baxıb, ona direniş göstərənlərin isə daxili işlərinə qarışır və bununla da qıcıq yaradır:** "Vaşinqton



ona boyun əyməyənlərə təzyiq göstərməyə, ilişməyə girəvə axtarır. Bu təzyiqin də həmişə iki başı olur. Həmin təzyiqə görə geri çəkilənin vay gününə. Orada ya o liderin, ya da o dövlətin evi yıxılır. Yəni, bunların qarşısından qaçmaq olmaz. Bir halda ki, cənab Prezidentimiz axıra kimi dediyi sözün üstündə durub və Azərbaycanın istənilən dövlətlə münasibətlərində bərabərhüquqluğa önəm verdiyini bildirib. Bəli, sağlam və şəffaf yanaşma budur. Bunu Avropa İttifaqı kimi, artıq Vaşinqton da bilir".

**Ceyms O'Braynin Bakıya səfərinin səbəblərindən danışan T.Abbasov ABŞ-ın bu bölgədə hansısa çaxnaşmanı gözlədiyinə diqqəti yönəldir:**

"Qərb və ABŞ bir bəhanə ilə erməniləri bizim üstümüzə qaldırmaq istəyirdi. Yəni Azərbaycanın Ermənistanın ehtimal edilən təxribatının qarşısını hansısa yolla alması onlara dəstavüz verməli idi. Nəticədə onların bölgədə yerləşməsinə "tutarlı zəmin" yaranmalı idi. Azərbaycan dünyanın və ABŞ-ın gözü qarşısında 19–20 sentyabrda antiterror tədbirlərini həyata keçirdi. Ondan sonra Aİ və Fransa kimi ABŞ da, bir növ, yolun ortasında qaldılar. Rəsmi Bakı öz diplomatiyası ilə



Qərbin "diplomatik qoşununu" tərksilah etdi. Onlar bunu özlərinə bağışlaya bilmirlər. Zəfərimizi isə bizə bağışlamaq istəmirlər. Məgər ATƏT-in Minsk qrupunda Fransa və Rusiya ilə birgə Azərbaycana qarşı min oyundan çıxan həmin ABŞ deyildimi?! İndi görəndə ki, Azərbaycana bata bilmirlər, deyirlər ki, yaxşı, gəlin barışaq. Məhz Vaşinqtonun belə "zondaj" siyasətinə Bakı soyuqqanlı şəkildə kəskin sözünü dedi. "3+3" formatı isə onları cin atına mindirir. Bəli, bölgənin problemlərini buradakı ölkələr öz aralarında həll edəcəklər. Əgər İrəvan bunu istəmirsə, özündən küssün".

* * *

**Siyasi şərhçi Turab Rzayev Ceyms O'Braynin Azərbaycana səfəri əsnasında Bakıdan anti-Rusiya koalisiyasına qoşulmağı istəyəcəyini ehtimal edir:**



"Antoni Blinkenin köməkçisinin Cənubi Qafqaz ölkələrindən yalnız Azərbaycana səfər etməsinin səbəbi sərhədin delimitasiyası, hələ də işğal altında qalan 8 kəndlə bağlı dövlətimizin mövqeyinin Ağ Ev tərəfindən qəbul edilməsi kimi anlamaq olar. Bununla yanaşı, O'Braynin Azərbaycandan nəqliyyat və kommunikasiya xətlərinin açılması, Ermənistanın blokadadan çıxarılması məsələlərini qaldıracağı da gözlənilәndir. Çünki Dövlət Departamentinin səfərindən az öncə Vaşinqton iki ölkə arasında sülh sazişinin tez bir zamanda imzalanmasında maraqlı olduğu barədə açıqlama verdi. Fikrimizcə, Bakıdakı rəsmi görüşlərdə Zəngəzur dəhlizi ilə bağlı məsələ müzakirə olunacaq.

Yuxarıda da qeyd etdiyimiz kimi, O'Braynin diplomatik çantasında təkcə bu deyil, həm də Vaşinqtonun Azərbaycandan Rusiyaya qarşı ABŞ cəbhəsində yer almaq istəyi də var. Hazırda Rusiya ətrafında geniş müdafiə və mühasirə zolağı formalaşdırılır. Qazaxıstan və Özbəkistanda NATO güclənir, Qırğızıstanda rus dili sıxışdırılır, Ukrayna və Moldovada vəziyyət bəllidir. Ermənistan və Gürcüstanın Aİ-yə üzvlük məsələsi gündəmə gətirilir. Çox böyük ehtimalla sülh müqaviləsi imzalandıqdan sonra Rusiya hərbi bazasının Ermənistandan çıxarılması tələb olunacaq. Gözlənilən bu proseslərin fonunda ABŞ və Qərb Azərbaycanı da Rusiyaya qarşı yanında görmək istəyir. Azərbaycan isə regional və qlobal geosiyasi şəraiti nəzərə almaqla həmin təkliflərə praqmatik cavabını verəcək".

* * *

"İrəvan gözlənilən təhlükələrdən yayınmaq üçün Azərbaycanla sülh müqaviləsi imzalamalıdır. Bununla yanaşı, həm də sərhədin delimitasiya və demarkasiyasını həyata keçirməlidir". **Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru, Rusiyanın "Milli müdafiə" jurnalının redaktoru, hərbi ekspert İqor Korotçenko belə deyir:**

"Amma Ermənistan sülh müqaviləsi imzalamaq istəmir. İrəvan Fransanın qucağında oturaraq, imkan daxilində, buraya Almaniyanı da cəlb edib, ABŞ-a arxalanaraq, sülh prosesini yenidən ləngitməyə çalışır. İrəvan və Bakı ortada vasitəçi olmadan da öz aralarında razılaşıb sülh müqaviləsini imzalaya bilərlər. Azərbaycan sülh sazişinin layihəsini dəfələrlə formalaşdırıb və qarşı tərəfə təqdim edib. Ermənistan tərəfdən isə hələlik ancaq siyasi demaqogiya eşidirik. Yeri gəlmişkən, ABŞ-ın mövqeyi, təəssüf ki, Cənubi Qafqazda sülhə töhfə verməyə köklənməyib. Bunu Bakı ilə İrəvan arasında baş verən son münaqişə də göstərir", – deyə



Korotçenko bildirib.

Rusiyalı ekspert hesab edir ki, ABŞ Azərbaycan üzərində siyasi təsir rıçaqlarına sahib olmağa çalışır: "Vaşinqton Bakıya necə təzyiq etmək, onu özünün bəzi tövsiyələrinə əməl etməyə hansı formada razı salmaq barədə düşünür. Heç bir şey alınmayanda, bu, Ağ Evdəkilərin xoşuna gəlmir. Məhz bu səbəbdən Amerika Qarabağ ermənilərinin yol xəritəsindən istifadə etməyə cəhd göstərir. Eyni zamanda, başa düşmək lazımdır ki, bu, hələ hamısı deyil. Bəli, Qərb Ermənistanı dəstəkləməyə köklənib. Biz Serbiyanın xüsusi mövqeyini, Macarıstan, İtaliya və Bolqarıstanın, eləcə də Cənub Qaz Dəhlizi ilə Azərbaycandan qaz alanların hamısının mövqeyini bilirik".

### Hayastanın qırmızı işığa doğru gedən "siyasi qatarı"

Uçurumun kənarı ilə addımlayan sərxoşa bənzəyən Ermənistan ağlına da gətirmək istəmir ki, o, bu təhlükəli yolda özünün suveren statusunu itirə bilər. Çünki, İrəvan hələ də kənar təsirlərdən qurtula bilmir, Bakı ilə sülh sazişini imzalamayıb, təhlükəsizliyinin siyasi strategiyasını müəyyənləşdirmədiyi bir yana, özü üçün ən pis və təhlükəli variantı seçib. Bu variant son dönəmlər müşahidə edilən Qərbin "dindaşlıq hisslərinə" arxalanmaq kimi saxta təəssübkeşliyə əsaslanır. Digər yandan, Vaşinqtonun ikitərəfli "dostluq münasibətlərinə" təminatı və amerikalı çinovniklərin "xoş təbəssümləri" də ermənilərin beynini dumanlandırıb. İntəhası, həmin Qərb və ABŞ onlara yağlı vədlərdən savayı heç nə vermədilər. Deməli, İrəvanın Rusiyadan yan keçərək, Qərbə istiqamət götürən "siyasi qatarının" istənilən an relsdən çıxaraq qəzaya uğraması ehtimalı çox böyükdür.

Məsələ həm də ondadır ki, ermənilər Cənubi Qafqazda təhlükəsizlik strukturunun aşkar aksiomlarını dərk etməkdə çətinlik çəkirlər. Həmin aksiomun mahiyyəti isə belədir: Azərbaycan güclü diplomatiyası, qüdrətli ordusu, Türkiyə və Rusiya kimi böyük regional aktorlarla, eləcə də İsrail və Böyük Britaniya ilə strateji əməkdaşlığı sayəsində özünün möhkəm status-kvosunu yaradıb. Bütün bunlardan başqa, Bakının strateji portfelində Türkiyə ilə Şuşa Bəyannaməsi, Rusiya ilə Strateji Müttəfiqlik Deklorasiyası var. Yəni, Azərbaycanın siyasi-iqtisadi və təhlükəsizlik perspektivinə təminat verən daşdan keçən iki sənəd!

Yeri gəlmişkən, dünən Rusiya Xarici işlər naziri Sergey Lavrov Moskvada azərbaycanlı həmkarı Ceyhun Bayramovla ikitərəfli görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan regional "3+3" platformasının getdikcə daha perspektivli olduğu barədə nikbin açıqlama verib. Bunu Kremlin Vaşinqtona cavab jesti kimi qəbul etsək belə, Azərbaycan və Türkiyənin təşəbbüsü ilə reallaşan bu regional formatın bəhrəsini yaxın perspektivdə görəcəyimiz şəksizdir. Elə hayların azsaylı ağıllı başları da artıq etiraf etməyə başlayırlar ki, Bakı ilə sülh müqaviləsini imzalamaqla Ermənistan avtomatik olaraq Azərbaycan və Türkiyə tərəfindən özünün ərazi bütövlüyünün tanınmasını əldə edəcək. Buna görə də Bakının, guya, İrəvan üçün hansısa təhlükə yaradacağı barədə erməni siyasətbazlarının məsuliyyətsiz və avantürist bəyanatlarının ağ yalan olduğunu həmin praqmatiklər əla bilirlər. Axı, sülh sazişinin imzalanması faktının özü ermənilərin canını bu cür qorxulardan və yarımçıqlıq kompleksindən qurtaracaq "zərdab" rolunu oynayacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

# "Ayakve" və Putinin həbsi, yaxud Simonyandan növbəti sərsəmləmə

## Ermənistan parlamentinin sədri yerli-yersiz anti-Rusiya xətti nümayiş etdirməkdən çəkinmir

**Ermənistan parlamentinin spikeri Alen Simonyan, deyəsən, Rusiya Prezidenti Vladimir Putinlə məzələnmək qərarına gəlib. Əlbəttə, onun qatı anti-Rusiya mövqeyi ilə seçilən siyasətçi olduğu məlumdur. Amma mənasız yerə bu qədər qeyri-etik tərzdə fikir bildirəcəyini ehtimal etmək çətin idi.**



Əvvəla, Simonyanın Qarabağı Azərbaycana Rusiyanın verdiyinə dair bir müddət əvvəlki bəyanatını yada salaq. Erməni spiker konkret olaraq bildirmişdi ki, Moskva Qarabağı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla Bakıya ərməğan edib. İndi isə o, təmsil olunduğu komandanın Rusiya Prezidenti Vladimir Putini Ermənistana daxil olacağı təqdirdə, həbslə üzləşmək təhlükəsindən qurtardığını vurğulayıb. Necə? Söhbətimiz əsasən bu barədədir, ancaq digər məqamlara da nəzər salacağıq.

Məlum olduğu kimi, Ermənistan parlamenti müxalif parlamentarilərin müzakirəyə çıxardığı mənfur "Ayakve" təşəbbüsünü rədd edib. O təşəbbüsü ki, onun qəbulu ilə Qarabağın Azərbaycan ərazisi kimi tanınması kriminallaşdırılır, yəni cinayət məsuliyyəti yaradırdı. Əlbəttə, erməni Milli Assambleyasının bu qondarma qanun layihəsini qəbul etməyəcəyi bilinirdi. Çünki "Ayakve" mahiyyətcə erməni iqtidarının anti-Azərbaycan fəaliyyətinə və Qarabağ avantürizminin davamı "ssenarisinə" zidd təmayüldür. Yada salaq ki, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığını bəyan edən rəsmi İrəvan bütün beynəlxalq platformalarda bölgə ermənilərinin hüquq və təhlükəsizliyi məsələsini qaldırır. Yəni, onun "yöntəmi" müxaliflərin yanaşmasından fərqlidir – əvvəl hüquq və təhlükəsiz təminatı, sonra ərazi iddiası.

Onu da vurğulayaq ki, A.Simonyanın tərkibində təmsil olunduğu hakim komanda tam perspektivsiz "Ayakve" təşəbbüsünün parlament tribunalarına daşınmasına qəsdən göz yumub. Məqsəd çox sadədir. Baş nazir Nikol Paşinyan və tərəfdarları Qərbə Ermənistanda Qarabağ mövzusunda barışmaz, daha avantürist kəsimin mövcudluğunu göstərmək istəyirlər. Ona görə göstərmək istəyirlər ki, Qərb dünyası rəsmi İrəvanın minumum kimi qiymətləndirilən tələbinin yerinə yetirilməsində, yəni haqqında danışdığımız Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsində israrlı davransın, Azərbaycana təzyiq göstərərək, onu tutduğu prinsipial yoldan döndərsin. Loru dildə desək, təxminən belə: ruspərəstlər çox istəyir, niyyətləri Kremlin Qarabağ müstəvisində Cənubi Qafqazda söz sahibinə çevrilməsidir, heç olmasa, bizə azı verin.

Bəs, belə demək mümkünsə, "Ayakve"çi müxalifətçilər kimlərdir? O adamlar ki, Rusiya ilə bağlıdırlar. Yəni, Ermənistandakı müxalif düşərgənin, əsasən, rusmeylli şəxslərdən təşkil olunduğu hər kəsə yaxşı məlumdur. Ona görə də A.Simonyan onların üzərindən Rusiyanın dövlət başçısına, belə demək mümkünsə, "sataşmağa" cəsarətlənir. O deyir ki, "Ayakve" qanunvericilik təşəbbüsü qəbul olunsa, Ermənistan hüquq-mühafizə orqanları Rusiya Prezidenti Vladimir Putinə qarşı cinayət işi başlatmağa məcbur qalacaqdılar. Erməni spiker bunu ona görə bildirir ki, Kremlin rəhbəri dəfələrlə çıxışlarında Qarabağın Azərbaycana məxsusluğunu vurğulayıb.

Bəli, "Ayakve" əsasında Ermənistanın Cinayət Məcəlləsinə dəyişiklikləri nəzərdə tutan səsvermənin nəticələri barədə danışan parlamentin sədri bildirib ki, müxalifət, qanun layihəsinin əleyhinə səs verdiyinə görə, hakim qüvvəyə minnətdar olmalıdır. "Biz sizə sifətinizi xilas etməyə kömək göstərdik. Çünki siz bu qanun layihəsinin girovu oldunuz. Sualım budur: Bu qanun "Artsax"ı Azərbaycanın bir hissəsi kimi tanıdığına görə müttəfiqimiz Rusiyanın prezidentinə şamil olunacaqmı?"

Qeyd edək ki, A.Simonyanın sualını "Ermənistan" fraksiyasının katibi və "Ayakve" təşəbbüsünün müəlliflərindən olan Artsvik Minasyan yerindən belə cavablandırıb: "Bu məsələ hakim qüvvədən başlayaraq, hamıya şamil olunacaq". Ardınca spiker yenə də məzələnməyə keçib: "Təşəkkür edirəm, bunu bildirməyiniz çox vacibdir. Sonra da deyirlər ki, siz ruspərəst müxalifətsiniz. Mən şəxsən buna inanmıram".

Birincisi, A.Simonyanın replikası məntiqsizdir. Elə bu məntiqsizliyə görə də bildirmək mümkündür ki, erməni spikerin məqsədi Rusiyaya qarşı nalayiq tərzdə söz açmaqdır. Hiss olunur ki, Ermənistanın hakimiyyət komandasının hər bir üzvü kimi, A.Simonyan ölkəsinin anti-Rusiya xəttini yerli-yersiz bütün məqamlarda ortaya atmaq əzmindədir.

Əslində, "Ayakve" təşəbbüsü Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanınmasına görə cinayət məsuliyyətini yalnız Ermənistan Respublikası adından danışan məmurlara şamil edir. Yəni, Prezident Putinin məsələyə, ümumiyyətlə, dəxli yoxdur. İkincisi, A.Minasyanın "qanun hamıya şamil ediləcək" cavabı da mənasızdır. Aydındır ki, onun hamıya şamil edilməsi mümkünsüzdür. Üçüncüsü isə əsas məsələ V.Putinin Ermənistana daxil olduqda dərhal həbsindədirsə, bu xüsusda üzərində dayayılmalı olan daha böyük məqam var. Söhbət ölkə parlamentinin ratifikasiya etdiyi və prezidentinin təsdiqlədiyi Roma Statutundan gedir.

Məlum olduğu kimi, Roma Statutuna qoşulma Beynəlxalq Cinayət Məhkəməsinin Rusiya Prezidenti V.Putinin və ölkənin digər rəsmilərinin həbsinə dair çıxardığı orderin Ermənistanda da keçərliliyi anlamını verir. Bu o deməkdir ki, hazırkı dövrdə Putin "Ayakve"yə görə deyil, məhz Roma Statutuna görə həbslə üzləşə bilər. Əlbəttə, Ermənistana gəlsə...

***R.ƏVƏZ***
***XQ***

# Müdafiə naziri misirli həmkarı ilə görüşüb

## *Hərbi-texniki əməkdaşlıq müzakirə edilib*

**"EDEX 2023" beynəlxalq müdafiə sərgisində iştirak etmək üçün Misirdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bu ölkəyə səfəri davam edir.**

Müdafiə Nazirliyindən bildirilib ki, səfər çərçivəsində general-polkovnik Z.Həsənov Misir Ərəb Respublikasının Müdafiə naziri general-polkovnik Mohamed Ahmed Zaki ilə görüşüb.

Azərbaycanın Misirdəki səfiri Elxan Poluxovun da iştirak etdiyi görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

***XQ***

# Ulu öndəri liderlik olimpinə aparan yol

**Görkəmli dövlət xadimi və dünya miqyaslı siyasətçi Heydər Əliyevin həyat və fəaliyyətinin ilk dövrü Naxçıvandan başlamış, bu böyük azərbaycanlı həyatının ilk illərini bu torpaqda yaşamış, təhsilini Naxçıvanda almışdır. Naxçıvan mühiti, ilk təhsil və tanınmış müəllimləri onun formalaşmasında mühüm rol oynamışdır.**



Heydər Əliyevin uşaqlıq və gənclik illəri burada keçmişdir. Ulu öndərin özü dəfələrlə bu torpağın qeyri-adiliyindən, əsrarəngiz təbiətindən, dağlarından, insanlarından, kəskin kontinental iqlimindən bəhs etmiş və həyatında Naxçıvanın önəmli rol oynadığını dəfələrlə, həm də minnətdarlıqla xatırlamışdır.

Dünyanın ən məşhur dövlət xadimlərinin portretlərini yaradan görkəmli rəssam Nikos Safronov Heydər Əliyevin 80 illik yubileyi münasibətilə onun portretini çəkərkən dahi insanla ünsiyyətdə olduqdan sonra bu qənaətə gəlmişdir ki, Heydər Əliyev Tanrının yaratdığı möcüzədir, belə şəxsiyyətlər min ildə bir dəfə dünyaya gəlir. N. Safronov yazmışdır: "Heydər Əliyev gözəl, alicənab və çox ağıllı bir insandır. Mən ona dərin rəğbət bəsləyirəm və həmişə ona baxarkən düşünürəm ki, görəsən, Tanrı belə insanları necə yaradır? Lakin Naxçıvana, Prezidentin vətəninə getdikdən, oranın füsunkar təbiətini, gözəlliyini gördükdən sonra bunların necə bir qüvvə olduğunu başa düşdüm, başa düşdüm ki, Naxçıvan hər bir sərkərdənin, hər bir dahi insanın güc, qüvvət ala biləcəyi bir yerdir".

Ümummilli lider Heydər Əlirza oğlu Əliyev 100 il bundan əvvəl – 1923-cü il may ayının 10-da Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan şəhərində anadan olmuşdur. Gələcəyin liderinin fitri istedadı, dərin zəkası, çalışqanlığı ətrafdakıların diqqətini cəlb etmiş, ona yaşıdlarından fərqli münasibət bəslənilmişdir. Keçən əsrin 20-ci illərində Naxçıvanda bir inkişaf, intibah baş vermiş, məktəb və mədrəsələrdə diqqəti çəkən müəllimlər gənclərin təlim-tərbiyəsi ilə ciddi məşğul olmuşlar. Bunlar barədə bəhs edən Heydər Əliyev qeyd etmişdir ki, "XX əsrin əvvəllərində Naxçıvanda təhsil və mədəniyyət çox geniş olmuşdur. Burada çox yüksək səviyyəli məktəblər var idi. Naxçıvanda insanlar çox yüksək təhsil alırdılar. Məktəblərdə verilən dərslər və şagirdlərin dərsləri qavramaları çox yüksək səviyyədə idi".



Naxçıvan şəhərində təhsil alan Heydər Əliyev əvvəl 1 nömrəli beynəlmiləl orta məktəbdə, sonra isə pedaqoji məktəbdə oxumuşdur. O, orta məktəbin yeddinci sinfini bitirdikdən sonra pedaqoji məktəbə daxil olmaq qərarına gəlir. Halbuki o, onuncu sinfədək oxuya bilərdi. Ancaq o, nə üçünsə qərara almışdı ki, müəllim olmalıdır. Görünür, bu işdə o illərdə Naxçıvanın pedaqoji məktəbinin (onu bəzən texnikum da adlandırırlar – İ.H.), ümumiyyətlə, müəllimliyin böyük nüfuza malik olması da əsas rol oynamışdı.

Pedaqoji məktəbdə Heydər Əliyevin ədəbiyyat müəllimi olmuş Lətif Hüseynzadə onun texnikuma qəbul olunması tarixini bu cür xatırlayır: "Heydərin atası Naxçıvanda nüfuzlu şəxs idi. O, mənim atamla da tanış idi... 1936-cı tədris ili ərəfəsində o, oğlu ilə birlikdə bizə gəldi. Əlirza kişi dedi: "Heydər müəllim olmaq istəyir, bu elə mənim də arzumdur". Sentyabrın 1-dən artıq 10 gün keçirdi, dərslər başlamışdı. Biz o vaxtlar tələbələri müsabiqə yolu ilə qəbul edirdik, onları sorğu-sual edir, bilik səviyyələrini yoxlayırdıq... Onu yoxlamaq qərarına gəldim. Dildən, ədəbiyyatdan suallar verməyə başladım. O, gözəl Azərbaycan dilində əla cavab verdi. Heydər mənim çox xoşuma gəldi və mən dedim: "Ondan yaxşı müəllim olar". Biz onunla birlikdə direktor Kazım Talıblının yanına getdik. Mən ona dedim: "Bu uşağı itirmək olmaz, o çox hazırlıqlıdır". Direktor təklif etdi ki, onu riyaziyyatdan yoxlayaq". Riyaziyyat müəllimi, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin məzunu Tofiq Bektaşi də abituriyentdən razı qalır. Heydərin qəbul məsələsi həll olunandan sonra L.Hüseynzadə – məktəbin direktor müavini onu sinfə aparıb tələbələrə və müəllimə təqdim edir.

Texnikum həyatı balaca Heydərin həyatında çox böyük rol oynayır. O, müəllimlərin tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməklə yanaşı, hərbi təlimlə, idmanla da, Şamil Qazıyevin dərnəyində rəssamlıqla da məşğul olmağa vaxt tapırdı. Puşkinin "Yevgeni Onegin", "Ruslan və Lyudmila", "Kapitan qızı" əsərlərinə çəkdiyi illüstrasiyalara görə Heydər müsabiqənin qalibi olub. Tələbə yoldaşları arasında Heydər Əliyev Lev Nikolayeviç Tolstoyun "Hərb və sülh" romanını orijinaldan oxuyan ilk tələbə olmuşdu. Bunu ona rus dili müəllimi Həsən bəy Qazıyev məsləhət görmüşdü. Heydər Əliyev tez-tez şəhər yarışlarında texnikumun idman şərəfini qoruyurdu. Onun teatra sonsuz marağı var idi.

Heydər Əliyev 1939-cu ildə pedaqoji texnikumu fərqlənmə ilə bitirdi. Bununla əlaqədar 2027 nömrəli attestat aldı. 30 fənnin hamısından "əla" qiymət almışdı. Diplomda yazılırdı: "Vətəndaş Əliyev Heydər Əlirza oğlu 1938/39 ilin tədris planının bütün tələblərini yerinə yetirdiyi üçün ibtidai məktəbdə – I-IV siniflərdə dərs aparmaq hüququna malikdir".

2002-ci il iyunun 18-də Naxçıvanda Bəhruz Kəngərli muzeyinin açılışındakı çıxışında Heydər Əliyev bu binadakı təhsil illəri haqqında belə deyirdi: "Mən həmişə Naxçıvanda təhsil aldığım illəri xatırlayıram. Bu illər mənim yaddaşımdan heç vaxt silinməyəcək. Müəllimlərimin hamısını yadımdadır. Hansı binada, hansı sinif otağında dərs keçməyimizi, hansı parta arxasında oturduğumu da yaxşı xatırlayıram. Mən burada mükəmməl təhsil almışam, özü də elə həvəs və aludəçiliklə oxumuşam ki, sonralar digər ali təhsil müəssisələrində oxumaq mənim üçün çətin olmayıb. Əksinə, burda olduğu kimi, tələbələr arasında da seçilmişəm. Bax ona görə də bu divarlar mənə əzizdir".

Göründüyü kimi, Naxçıvanda aldığı təhsili ulu öndərimiz sonrakı illərdə dəfələrlə minnətdarlıqla xatırlayırdı: "O dövrdə aldığım təhsil gələcək həyatımın bütün mərhələlərində mənə yardım edibdir". Altmış ildən sonra, ona dərs demiş müəllimləri və onların tədris etdikləri fənlərin adlarını dəqiqliklə söyləməsi ümummilli liderimizin bir tərəfdən müəllimlərinə bəslədiyi dərin hörmətin ifadəsi idisə, digər tərəfdən bu dahi insanın fenomen yaddaşa malik olduğunun bir daha göstəricisi idi. "Heydər Əliyev iti ağlı, güclü məntiqi, fenomen yaddaşı olan qüvvətli bir şəxsiyyət, sözün həqiqi mənasında kompüter insandır".

Heydər Əliyevi gənc yaşlarından tanıyanların hamısı onun xarakterinin bir cəhətini xüsusi olaraq vurğulayırlar – bu oğlan bütün cəhətlərilə anadangəlmə lider idi. Onun liderliyini ailəsində də, məktəbdə də, texnikumda da, daha sonralar dostlarının əhatəsində də sözsüz qəbul edirdilər. Halbuki, dostları arasında ondan yaşca da, rütbəcə də, vəzifəcə də böyük olanlar vardı. Çoxları artıq o zamanlar güman edirdilər ki, onun parlaq gələcəyi var.

Sonrakı dövrlərdə də müəllim peşəsini çox yüksək qiymətləndirən Heydər Əliyev texnikumu bitirən vaxt müəllim olmaq arzusu bir qədər azalmışdı. O, başqa, daha yüksək, daha şərəfli arzu və istəklə yaşayırdı. Onun arzusu memar olmaq idi, bu arzu ilə də o, 1939-cu ildə Bakıya yollandı. Sənədlərini Sənaye İnstitutunun memarlıq fakültəsinə verdi. O, memarlıq ixtisasına qəbul olmaq üçün 13 imtahan verməli oldu. İmtahanların hamısından "əla" alıb instituta qəbul olundu. Heydər burada da tələbə yoldaşları arasında zəhmətsevərliyi, inadkarlığı, zəngin bilik ehtiyatı və bu ehtiyatı yorulmadan artırmaq cəhdləri ilə seçilirdi. İxtisas fənlərinin çoxunu rus dilində tədris edirdilər. Bu da gənc Heydərin rus dilində nitqinin daha da təkmilləşməsinə imkan yaradırdı.

Heydər Əliyevin öz sözlərinə görə, o, tələbəlik illərində rəssamlıqla məşğul olmağa davam edirdi və onun rəsm əsərləri Bakının sərgi salonlarında uğurla nümayiş etdirilirdi.

İlk iki semestri həmişəki kimi uğurla, yüksək qiymətlərlə başa vuran gənc Heydər ailənin maddi durumu ilə əlaqədar institutdan möhlət götürür və təhsilini yarımçıq qoymalı olur. Qardaşı Aqil Əliyevin xatirələrindən aydın olur ki, Heydər institutda cəmi bir il oxumuşdur. Bakıda yaşamaq maddi cəhətdən çox çətin olduğundan Naxçıvana qayıdırlar. Bu barədə müsahibə verən Heydər Əliyevin gənclik dostu, əməkdar hüquqşünas İbrahim İsmayılov da qeyd edir ki, Heydər, mən və Aqil 1940-cı ilin avqustunda qatarla Naxçıvana getdik.

Naxçıvana qayıdan Heydər Əliyev Naxçıvan Daxili İşlər Xalq Komissarlığının arxiv şöbəsində ədəbi işçi vəzifəsinə işə düzəlir. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Mərkəzi Dövlət Arxivində rəsmi sənəd var: "15 oktyabr 1941-ci ildə Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının Arxiv şöbəsi üzrə 80 nömrəli əmrə əsasən və Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının razılığı ilə (baş leytenant, yoldaş Quliyev) Əliyev Heydər Əlirza oğlu Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının Mərkəzi Dövlət Arxivinə elmi işçi vəzifəsinə qəbul edilmişdir.

6 iyun 1942-ci ildə Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının baş leytenantı yoldaş Quliyevin sanksiyasına əsasən elmi işçi Heydər Əliyev Mərkəzi Dövlət Arxivinin məxfi şöbəsinə müdir vəzifəsinə keçirilmişdir. Buna qədər gənc Heydər rus dilini əməlli-başlı öyrənmişdi, sənədləri nöqsansız yazmağı və tərtib etməyi bacarırdı. Hərbi komissarlıq da kömək üçün ona müraciət edirdi. O vaxtlar Naxçıvanda ümumiyyətlə savadlı adamlar az idi, ona görə də Heydər kimiləri göydə axtarırdılar.

Elə o vaxtdan Heydərdən dövlət təhlükəsizliyi xətti üzrə də istifadə etməyə başladılar. O, arxivin ştatında qalsa da, artıq orqanlar üçün işləyir, arxivin məxfi hissəsi ilə bağlı xüsusi tapşırıqları yerinə yetirirdi. Axı o vaxtlar insanları əsaslı şəkildə yoxlayırdılar. Həmin orqan da onu dəyərli, perspektivli əməkdaş kimi orduda xidmətdən azad etmişdi.

Heydər Əliyev Naxçıvan MSSR Hərbi Komissarlığının 3 iyun 1943-cü il rəsmi məktubuna və Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının razılığına əsasən 22 nömrəli əmrlə (mayor, yoldaş Nağıyev) hərbi xidmətə çağırışla əlaqədar tutduğu vəzifədən azad olunur. Daha sonra 14 iyul 1943-cü ildə Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığı nəzdində 45 nömrəli əmrlə müvəqqəti Naxçıvan MSSR Xalq Komissarları Sovetinə ümumi şöbənin müdiri təyin edilir. 17 may 1944-cü ildə isə başqa işə keçdiyi üçün 27 nömrəli əmrlə Heydər Əliyev Naxçıvan MSSR Xalq Komissarları Sovetinin ümumi şöbəsinin müdiri vəzifəsindən azad edilir.

Rusiya jurnalisti Andrey Karaulova 1989-cu ilin noyabrında verdiyi müsahibədə Heydər Əliyev özü ilk xidmət addımlarını belə təsvir edirdi: "1941-ci ildən mən Naxçıvan MSSR-in NKVD-sində... arxiv şöbəsinin məxfi hissəsinin müdiri vəzifəsində işləyirdim. Sonra muxtar respublikanın Xalq Komissarları Sovetində şöbə müdiri, 1944-cü ildən isə Xalq Daxili İşlər Komissarlığı – Dövlət Təhlükəsizliyi Nazirliyi və Dövlət Təhlükəsizliyi Komitəsində əməliyyat işində işləmişəm".

1944-cü il yanvarın 27-də Heydər Əliyev Dövlət Təhlükəsizliyi Xalq Komissarlığına əməliyyat müvəkkili vəzifəsinə işə götürülməsi barədə ərizə yazır. 1944-cü ilin mayında isə o artıq XDTK-nın leytenant rütbəsini daşıyan əməkdaşı idi. O vaxt onun 21 yaşı təzəcə tamam olmuşdu. Dövlət təhlükəsizliyi orqanlarında fəaliyyətə başlayan Heydər Əliyev çox çətin və şərəfli yol keçmişdir. Təhlükəsizlik orqanlarında xidmət etmək nə qədər şərəfli idisə, bir o qədər də ağır və riskli idi. Bu orqanlarda işləmək çoxlarının arzusu idi, lakin oraya seçilmiş adamları götürürdülər. Təhlükəsizlik orqanlarında işləmək üçün təkcə maraq və arzu kifayət deyildi, vətənə hədsiz məhəbbət, səbir, dözüm, güclü analitik təfəkkür, sərbəst qərar qəbul etmək bacarığı və digər keyfiyyətlər tələb olunurdu. Heydər Əliyevdə bunların hamısı cəmlənmişdi.

Heydər Əliyev dövlət təhlükəsizliyi orqanlarının sıralarında yalnız öz şəxsi keyfiyyətləri – dərin erudisiyası, hərtərəfli dünyagörüşü, parlaq zəkası nəticəsində vəzifə pillələrində addım-addım irəliləyirdi. Heydər Əliyev XX əsrin 40-cı illərində Azərbaycan SSR Xalq Dövlət Təhlükəsizliyi Komissarlığında gedən prosesləri diqqətlə izləyir, gənc əməkdaş kimi dövlət təhlükəsizliyi orqanları qarşısında qoyulmuş vəzifələri dərindən öyrənirdi. O, hər vəchlə təcrübəsini artırmağa, əməliyyat işinin sirlərini dərindən öyrənməyə çalışır, yaşlı əməkdaşların təcrübələrindən bəhrələnirdi.

Heydər Əliyev 1945-ci ilin iyun-iyul aylarında Bakı Diyarlararası Məktəbin əməliyyat işçilərinin peşə hazırlığının artırılması üzrə qısamüddətli kursu əla qiymətlərlə bitirir. bu gəncin dövlət təhlükəsizliyi orqanlarına gəlişi II Dünya müharibəsi və Cənubi Azərbaycanda milli azadlıq hərəkatının geniş vüsət aldığı dövrə təsadüf edir. Cənubi Azərbaycanda və Sovet Azərbaycanında cərəyan edən proseslər, ayrı-ayrı vaxtlarda doğma Vətənə münasibətdə baş vermiş tarixi ədalətsizliklər, milli ziyalılarımızın daim təqib olunması gənc Heydər Əliyevi düşündürürdü. Naxçıvan MSSR XDİK-də İran ərazisi istiqamətinə nəzarət edən Heydər Əliyev bu və digər şəkildə Cənubi Azərbaycanda sovet xüsusi xidmət orqanı əməkdaşlarının əməliyyatlarının əks-kəşfiyyat mühafizəsində iştirak edirdi.

Naxçıvanın idarəetmə və hüquq-mühafizə orqanlarında çalışan əməkdaşlar üçün 1944–1946-cı illər Cənubi Azərbaycanda başlayan qızğın hadisələrlə bağlı ən gərgin və dramatik bir vaxt idi. Heydər Əliyev Azərbaycan xalqının birləşməsi üçün olduqca əlverişli şəraitin yarandığını görürdü. Lakin Moskva, əfsuslar olsun ki, işi axıra çatdırmadı. ABŞ və Böyük Britaniyanın təzyiqləri nəticəsində SSRİ öz qoşunlarını Cənubi Azərbaycandan çıxarmağa məcbur olur. 1946-cı il aprelin 4-də imzalanan Sovet–İran sazişi ilə Cənubi Azərbaycan məsələsi İranın daxili işi hesab edildi.

Bundan istifadə edən İran qoşunları Cənubi Azərbaycanın azərbaycanlı əhalisinə qarşı zor tətbiq etdi, minlərlə insan güllələndi, edam və həbs edildi. Minlərlə soydaşımız SSRİ-yə sığınmaq arzusu ilə Naxçıvan sərhədinə gəldi. Bir neçə günün içində on minə yaxın soydaşımız sərhədi keçdi. Naxçıvana gələn qaçqınların ardı-arası kəsilmirdi. Yaranmış vəziyyətdən istifadə edən İran, ABŞ və İngiltərə kəşfiyyat orqanları bu qaçqınların sırasına öz agentlərini göndərirdilər.

Belə bir qarışıq dövrdə Heydər Əliyevin hansı potensiala malik olması aydın sezilməyə başladı. Sovet–İran sərhədinin Naxçıvan hissəsində casusların tutulması, ifşa edilməsi istiqamətində Heydər Əliyevin fəaliyyəti yuxarı dairələrin diqqətini cəlb edirdi. Təsadüfi deyil ki, Heydər Əliyev bu dövrdə ilk mükafatına "Əmək rəşadətinə görə" medalına layiq görülür. 1947-ci ildə artıq baş leytenant olan Heydər Əliyev Naxçıvan Dövlət Təhlükəsizliyi Nazirliyinin 5-ci şöbəsinin rəisi təyin olunur. Bu şöbə Naxçıvan təhlükəsizlik orqanlarının ən əsas bölmələrindən biri idi, İran və türk xüsusi xidmətlərinə qarşı əks-kəşfiyyat işləri aparırdı.

Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi nazirinin 1949-cu il 10 may tarixli 66 saylı əmri ilə Naxçıvan MSSR Dövlət Təhlükəsizliyi Nazirliyinin 5-ci şöbəsinin rəisi, baş leytenant Heydər Əlirza oğlu Əliyev vəzifəsi saxlanılmaqla bir il müddətinə təhsil almaq üçün SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Leninqraddakı (indiki Sankt-Peterburq – İ.H.) xüsusi məktəbinə ezam edilir.

**(ardı var)**

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan bölməsinin sədri, akademik***



*(əvvəli 1-ci səhifədə)*

T.Mirkişili bildirdi ki, qeyd olunan dəyişikliklər nəzərə alınaraq, 2024-cü ilin dövlət və icmal büdcələrinin ümumi göstəriciləri dəyişdirilmədən, müzakirəyə təqdim edilən layihədə olduğu səviyyədə, yəni dövlət büdcəsinin gəliri 34 milyard 173 milyon manat, xərcləri 36 milyard 763 milyon manat, kəsiri 2 milyard 590 milyon manat, müvafiq olaraq icmal büdcənin gəlirləri 38 milyard 998 milyon manat, xərcləri 42 milyard 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat məbləğində saxlanılır.

Dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 138,2 milyon manat çoxdur. Dövlət büdcəsi kəsirinin ÜDM-də payı 2,2 faiz proqnozlaşdırılır.

Bütövlükdə, 2024-cü il üçün icmal büdcənin gəlirləri 38 milyard 997 milyon manat, icmal büdcənin xərcləri 42 milyard 376 milyon manat proqnozlaşdırılır.

Baş nazir diqqətə çatdırdı ki, makroiqtisadi çərçivə proqnozlaşdırılan zaman Strategiyada ortamüddətli dövrdə iqtisadi artımla bağlı müəyyənləşdirilmiş hədəflər nəzərə alınıb. Belə ki, iqtisadi artımın proqnozlaşdırılan orta illik tempi 2,9 faiz, həmçinin qeyri-neft sektoru üzrə 4,8 faiz nəzərdə tutulub.

# Gələn ilin dövlət büdcəsi həyata vəsiqə aldı

Sonra "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edildi.

Gündəliyin növbəti 2-ci və 3-cü məsələləri – "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" və "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihələri barədə parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verdi. O, layihələrin mətnlərində dəyişiklik edilmədiyini bildirdi.

Komitə sədri "Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında" qanun layihəsi barədə məlumat verdikdən sonra qanun layihələri səsə qoyularaq üçüncü oxunuşda qəbul edildi.

Büdcə zərfinə daxil olan digər qanun layihələri qəbul edildikdən sonra çıxış üçün söz Baş nazir Əli Əsədova verildi. O, deputatların istər plenar, istərsə də komitə iclaslarında büdcə müzakirələrində çox fəal iştirak etdiyni və cəmiyyətimizi narahat edən məsələləri qaldırdıqlarını diqqətə çardırdı. Baş nazir qeyd etdi ki, bununla yanaşı, ötən il büdcə müzakirələri zamanı deputatların qaldırdıqları bir çox məsələlər bu il ərzində öz həllini tapıb.

Ə. Əsədov diqqətə çatdırdı ki, təməli ulu öndər tərəfindən qoyulmuş xarici və daxili siyasət kursu bu gün möhtərəm cənab Prezident tərəfindən müasir dünyanın çağırış və tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir. O, bildirdi ki, dövlət başçısının müəyyən etdiyi əsas prioritet xərc istiqamətləri əsasında 2024-cü ildə həyata keçiriləcək tədbir və layihələrin uğurlu icrası üçün büdcədə tələb olunan maliyyə təminatı yaradılıb.

Baş nazir qeyd edib ki, 2024–2027-ci illərdə makro-fiskal çərçivənin parametrləri büdcə qaydasının ortamüddətli lövbərlərinə əsaslanaraq hazırlanıb. Post-pandemiya dövründən sonra milli iqtisadiyyatın artım tempi bərpa olunsa da, qlobal iqtisadiyyatda qeyri-müəyyənliklər, geosiyasi vəziyyət, beynəlxalq maliyyə mühitində sərtləşmələr ölkə iqtisadiyyatı qarşısında yeni çağırışlar formalaşdırır. Hazırda strateji valyuta ehtiyatlarımız 68,3 milyard ABŞ dolları təşkil edir ki, bu da Ümumi Daxili Məhsulun 97 faizinə bərabərdir.

2024-cü ilin makroiqtisadi çərçivəsi də ölkə iqtisadiyyatının real artımı, məqbul inflyasiya səviyyəsi və profisitli tədiyə balansı ilə proqnozlaşdırılır. Büdcədə neftin qiyməti 60 ABŞ dolları müəyyən edilib.

Baş nazir bildirdi ki, "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda qoyulmuş hədəflərin, Böyük Qayıdışa dair I Dövlət Proqramının və hərbi xərclərin maliyyə öhdəliyi büdcə xərclərinin miqyasına əhəmiyyətli təsir edir. Əgər dövlət büdcəsi xərclərinin ÜDM-də payı 2017-ci ildə 25 faiz idisə, 2024-cü ildə 31 faizə yüksəlib və xərclərin həcmi 2 dəfədən çox artıb.

2024-cü il üçün dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü ilin proqnozu ilə müqayisədə 282,5 milyon manat çoxdur.

2024-cü ildə dövlət büdcəsinin qeyri-neft gəlirlərinin cari xərcləri təminetmə səviyyəsi 75 faizi keçib. Qeyri-neft sektoru üzrə büdcə gəlirləri son 7 ildə 2 dəfəyə yaxın artıb.

2023-cü ilin sonuna orta illik inflyasiyanın birrəqəmli səviyyədə olacağı proqnozlaşdırılır. Dövlət Statistika Komitəsinin ilkin rəqəmlərinə görə, artıq 2023-cü ilin 11 ayında orta illik inflyasiya birrəqəmli 9,4 faiz olub, illik inflyasiya 2,6 faiz təşkil edib.

Eyni zamanda, Nazirlər Kabinetində "İnflyasiya və qiymət monitorinqi" üzrə yaradılmış İşçi qrup tərəfindən inflyasiya proseslərinin və onun səbəblərinin araşdırılması və təhlili istiqamətində zəruri işlər görülür.

2024-cü ilin dövlət büdcəsi xərclərinin 43 faizi, büdcənin cari xərclərinin isə 70 faizi sosialyönlü xərclərdir. 2020-ci illə müqayisədə bu xərclər mütləq ifadədə 6 milyard manat və ya 1,6 dəfə artıb. Son beş ildə 4 milyon nəfəri əhatə edən 4 sosial islahat paketi icra olunub, bu islahatlara 7 milyard manata yaxın əlavə vəsait yönəldilib.

Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası istiqamətində mühüm işlər görülüb. Möhtərəm Prezident İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birgə möhtəşəm bərpa-quruculuq işlərinə bilavasitə başçılıq edirlər.

Qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonundakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 12 milyard manat vəsait ayrılıb. 2024-cü ilin dövlət büdcəsində isə 4 milyard manat vəsait nəzərdə tutulub.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr, verilən vergi, gömrük, sosial sığorta, investisiya təşviqi, kredit və digər güzəştlər paketi həmin rayonların sürətlə dirçəlməsinə, əhalinin məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir.

Baş nazir qeyd etdi ki, artıq Böyük Qayıdışa dair I Dövlət Proqramı üzrə qayıdış prosesinin ilkin mərhələsinə start verilib, 2026-cı ilədək 34,500 ailənin və ya 140 min vətəndaşımızın köçürülməsi nəzərdə tutulub.

İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış Proqramına uyğun olaraq, ümumilikdə, 987 ailənin (3932 nəfər) köçürülməsi təmin olunub. Cari ilin sonunadək əlavə olaraq 215 ailənin köçürülməsi gözlənilir.

Qarabağ iqtisadi rayonunun əraziləri - Xankəndi, Ağdərə, Xocalı, Xocavənd və bütövlükdə işğaldan azad olunmuş rayon və şəhərlərin yerli xərcləri üzrə büdcədə 50 milyon manatdan artıq vəsait nəzərdə tutulub.

Müdafiə və milli təhlükəsizlik xərcləri üçün 2024-cü ilin dövlət büdcəsi xərclərinin 17,5 faizi həcmində və ya 6,4 milyard manatdan artıq vəsait nəzərdə tutulub. Bu da 2023-cü ilə nisbətən 366 milyon manat və ya 6 faiz çoxdur.

Növbəti il üzrə təhsil xərclərinə 4,5 milyard manat vəsait proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 3,2 faiz çoxdur.

Ölkə Prezidentinin davamlı diqqət və qayğısı, həyata keçirilən proqramlar və Heydər Əliyev Fondunun dəstəyi ilə son 20 il ərzində 3600-dən çox məktəb binası tikilib və ya əsaslı təmir edilib. Nəticədə yenilənmiş məktəblər bütün məktəblərin təxminən 80 faizini təşkil edir. Son 3 ildə 275 məktəbin tikintisi və ya əsaslı təmiri nəticəsində ölkəmizdə qəzalı məktəblərin sayı 30 faiz azalıb.

Baş nazir bildirdi ki, bir neçə gün əvvəl noyabrın 28-də dövlət başçısının Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması haqqında Sərəncam imzalaması Qarabağ regionunun zəngin təhsil ənənələrinin yaşadılmasına, həmin regionda yüksəkixtisaslı kadrların hazırlanmasına əhəmiyyətli töhfədir.

Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi də cənab Prezident tərəfindən Hökumət qarşısında strateji vəzifə kimi qoyulub. 2024-cü ilin dövlət büdcəsində ərzaq təhlükəsizliyi tədbirləri üçün 500 milyon manatdan çox vəsait nəzərdə tutulur.

Ölkədə yerli istehsalın özünütəminetmədə rolunun artırılması ilə bağlı da tədbirlər həyata keçirilir. Bu baxımdan, ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması prioritet istiqamətlərdəndir.

Mövcud su ehtiyatlarından səmərəli istifadə olunması, fermerlərin suvarma suyu ilə təchizatı və suvarma sahələrinin genişləndirilməsi tədbirləri üçün 2024-cü ilin dövlət büdcəsindən 500 milyon manat vəsait ayrılacaqdır.

Baş nazir qeyd etdi ki, son dövrlər regionda baş verən geosiyasi proseslər fonunda Şərqlə Qərb arasında ənənəvi logistik zəncirlərin qırılması ölkəmizin ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin aktuallığını artırıb. Bu baxımdan, Orta Dəhliz mühüm əhəmiyyət kəsb edir. Bu dəhlizdə fəal iştirak Azərbaycanın regional ticarət və tranzit qovşağı kimi mövqeyini gücləndirir. Bu isə ölkəmizin Asiya və Avropa üçün strateji tərəfdaş kimi əhəmiyyətini artırır və iqtisadiyyatımızda əlavə dəyərin yaranmasına töhfə verir.

Bütün bunları nəzərə alaraq, dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı" təsdiq edilib.

Baş nazir onu da dedi ki, 2024-cü ilin dövlət büdcəsində investisiya xərcləri üçün nəzərdə tutulan vəsaitin 890,4 milyon manatı sosial və infrastruktur təyinatlı layihələrin maliyyələşdirilməsinə yönəldiləcəkdir.

Qeyd olundu ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın icrasına isə 249 milyon manat vəsait nəzərdə tutulub.

Ortamüddətli perspektivdə xərclərin artımının dayanıqlı gəlir mənbələri ilə uzlaşdırılması və Neft Fondunun aktivlərinin dayanıqlı səviyyədə saxlanılması da təmin olunacaqdır.

Daxili bazarda sağlam rəqabət mühitinin təmin olunması istiqamətində aidiyyəti qurumlarla birgə "Qiymət İzləmə Sistemi"nin tətbiqi ilə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən subyektiv səbəblərə (rəqabət pozuntuları, bazarların bölüşdürülməsi və qiymət manipulyasiyasına) yol verən bazar subyektlərinə qarşı nəzarət tədbirləri gücləndiriləcək və ciddi tədbirlər görüləcəkdir. Rəqabət Məcəlləsinin qəbul olunması da bu proseslərə təkan verəcəkdir.

Baş nazir çıxışının sonunda bildirdi ki, büdcə müzakirələri zamanı qaldırılan bütün məsələlər Hökumət və aidiyyəti qurumlar tərəfindən diqqətə alınacaq, qeyd edilən problemlərin həlli istiqamətində mümkün olan bütün zəruri tədbirlər görüləcəkdir.

Sonra gündəlikdəki digər qanun layihələri də müzakirə olunaraq müvafiq qərar qəbul edildi.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin geniş tərkibdə görüşü



**Dekabrın 5-də Moskvada Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin geniş tərkibdə görüşü keçirilib.**

Tədbirdə çıxış edən Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov belə görüşlərin keçirilməsinin Xəzər regionunda mövcud əməkdaşlıq gündəliyində duran aktual məsələlərin müzakirəsində mühüm rol oynadığını diqqətə çatdırıb.

Hazırkı beynəlxalq münasibətlər sistemində mövcud vəziyyətin beynəlxalq hüquq normaları, xüsusilə dövlətlərin ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmətin əhəmiyyətini bir daha təsdiqlədiyini qeyd edən nazir Xəzər regionu çərçivəsində də sözügedən prinsiplərin, habelə beynəlxalq hüquqda mövcud təcrübələrin rəhbər tutulmasının vacibliyini vurğulayıb.

Xəzər dənizindən sülh, dostluq və həmrəylik məqsədləri naminə birgə istifadə üçün Xəzəryanı dövlətlər arasında mövcud müqavilə-hüquq bazasının möhkəmləndirilməsinin, habelə "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın ən qısa zamanda qüvvəyə minməsinin əhəmiyyəti qeyd olunub.

Karbohidrogen ehtiyatları ilə zəngin olması ilə yanaşı, mühüm geostrateji mövqe tutan Xəzər dənizi hövzəsində yerləşən dövlətlər arasında bir sıra sahələr, o cümlədən, iqtisadi, ticarət, investisiyalar, alternativ enerji və digər istiqamətlər üzrə geniş potensialın mövcud olduğu, bu potensialdan istifadənin öz növbəsində regionda nəqliyyat və kommunikasiyaların, infrastruktur və texnologiyaların inkişafına da töhfə verə biləcəyi diqqətə çatdırılıb. Bu istiqamətdə, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun imkanlarından istifadənin, o cümlədən, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafına da töhfə verəcəyinə dair əminlik ifadə olunub.

Xəzəryanı ölkələrin qarşısında duran ən mühüm çağırışlardan birinin Xəzərin dayazlaşması və bunun nəticəsində yaranan ekoloji problemlərin olduğu, bu istiqamətdə Prezident İlham Əliyevin aidiyyəti üzrə ekspert qrupunun yaradılması təşəbbüsü ilə çıxış etdiyi, hazırda Bakıda ekspertlərin müvafiq görüşünün təşkili istiqamətində işlər aparıldığı bildirilib.

Tədbirin sonunda müzakirə edilmiş məsələlərin yer aldığı bəyanat qəbul olunub.

# Ceyhun Bayramovun Moskva görüşləri



**Dekabrın 5-də Moskvada Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov ilə Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov arasında görüş keçirilib.**

Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin Moskvada təşkil olunmuş görüşü çərçivəsində baş tutan danışıqlarda Azərbaycan ilə Rusiya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri, o cümlədən, regionda mövcud vəziyyət müzakirə edilib.

Ceyhun Bayramov iki ölkə arasında müxtəlif sahələr, o cümlədən, siyasi, iqtisadi, ticarət, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edib.

O, danışıqlarda regional təhlükəsizlik, o cümlədən, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, eləcə də "3+3" formatında əməkdaşlıqla bağlı məsələlər nəzərdən keçiriləcək.

Sergey Lavrov Azərbaycan ilə Rusiya arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edib. S.Lavrov iki ölkənin iqtisadi sahədə qarşılıqlı fəaliyyətlə əlaqədar bir sıra iri layihələr, o cümlədən "Şimal-Cənub" beynəlxalq dəhlizi çərçivəsində sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Rusiyalı nazir Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "3+3" platformasının perspektivli olduğunu qeyd edib.

## Ermənistanın silahlandırılması bölgədə sülhə və sabitliyə təhdiddir

**Dekabrın 5-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Xəzəryanı ölkələrin Xarici İşlər Nazirləri Şurasının iclasında iştirakı çərçivəsində İranın xarici işlər naziri Hüseyn Əmir-Abdullahian ilə görüşüb.**

Görüşdə son aylarda yüksək səviyyədə keçirilmiş görüşlərin və qurumlararası təmasların münasibətlərin inkişafı istiqamətinə verdiyi töhfə yüksək qiymətləndirilib.

Tərəflər bölgədə nəqliyyat və kommunikasiya dəhlizlərinin inkişafı və genişləndirilməsi istiqamətində planları müzakirə ediblər. Bu xüsusda, "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində işlərin sürətləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin perspektivləri, Ermənistan tərəfindən törədilən maneçilik, habelə Qarabağ bölgəsində antiterror tədbirlərindən sonra bölgədə həyata keçirilən işlər barədə qarşı tərəfə məlumat verib.

C. Bayramov Ermənistanın silahlandırılması səylərinin bölgədə sülhə və sabitliyə təhdid olduğunu vurğulayıb.

***XQ***

# Azərbaycan ilə Kuba arasında siyasi məsləhətləşmələr

**Xarici işlər nazirinin müavini Elnur Məmmədov Kubaya səfəri çərçivəsində iki ölkə xarici işlər nazirlikləri arasında ilk siyasi məsləhətləşmələr keçirilib.**

Məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Elnur Məmmədov, Kuba tərəfindən isə xarici işlər nazirinin müavini Elio Rodriqez Perdomo rəhbərlik edib.

Məsləhətləşmələr zamanı ikitərəfli münasibətlərin cari vəziyyəti, son müddətdə ölkələrimiz arasındakı əlaqələrdə müşahidə olunan müsbət dinamika, iqtisadi-ticarət, səhiyyə, turizm, təhsil və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi ətrafında müzakirələr aparılıb.

Sonra iki ölkə arasında siyasi məsləhətləşmələr mexanizminin yaradılmasına dair Anlaşma Memorandumu imzalanıb.

***XQ***

# Ölkəmiz İslam Əməkdaşlıq Təşkilatının nüfuzlu üzvüdür

**İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin (COMCEC) 39-cu Nazirlər Toplantısı keçirilib. "İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin elektron ticarət potensialının təkmilləşdirilməsi" mövzusuna həsr olunmuş tədbirdə ölkəmizi iqtisadiyyat nazirinin müavini Sahib Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.**



Müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlayan mərasimdə çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dünyada baş qaldıran İslamofobiyanın ifadə azadlığı adı altında gizlədildiyini deyib. İsrail–Fələstin qarşıdurmasına toxunan Ərdoğan bölgəni dincliyə, sabitliyə aparan yolun məhz bu münaqişənin sülh yolu ilə həllindən keçdiyini bildirib.

Quruma daxil olan ölkələr arasında iqtisadi əməkdaşlıqların artırılması istiqamətində çatışmazlıqların aradan qaldırılmasının vacibliyini vurğulayan Türkiyə Prezidenti elektron ticarətin inkişafı və rəqəmsal transformasiyanın iqtisadiyyat sahəsinə yeni imkanlar yaratdığını qeyd edib.

Toplantının rəsmi açılış mərasimində çıxış edən İƏT-in baş katibi Hissein Brahim Taha üzv dövlətləri iqtisadiyyatın mühüm sahələrinə daha çox sərmayə qoymağa çağırıb. Baş katib COMCEC-in sədri, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təşkilatın müxtəlif iqtisadi proqram və layihələrinin həyata keçirilməsinə davamlı dəstəyini vurğulayıb.

Hissein Brahim Taha İƏT və onun təsisatlarının son bir ildə iqtisadi sahədə fəaliyyətini vurğulayaraq iqtisadiyyatın mühüm sahələrində, xüsusən ərzaq və kənd təsərrüfatı sektorunda təşkilat daxilində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini vurğulayıb. O, İƏT-ə üzv dövlətlərdə yerli istehsal potensialının inkişafına kömək etmək üçün daha davamlı qida sistemləri, bilik və ən yaxşı təcrübələri bölüşməyə, müvafiq olaraq, həmin ölkələrin inkişaf problemlərinin həlli istiqamətində daha çox əməkdaşlığa, harmonizasiyaya və səylərin sinerjiləşdirilməsinə çağırıb.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov mərasimdə çıxış edərək İslam Əməkdaşlıq Təşkilatında daxili ticarət, iqtisadi əməkdaşlıqda özəl sektorun rolunun artırılması, maliyyə əməkdaşlığı, nəqliyyat və kommunikasiya sahələrinin təkmilləşdirilməsi və ölkələrin elektron ticarət potensialının təkmilləşdirilməsi kimi aktual məsələlərdən söhbət açıb. Nazir müavini ölkəmizin İƏT dövlətləri ilə tərəfdaşlığın inkişafına önəm verdiyini vurğulayıb. İclasda, həmçinin ölkə iqtisadiyyatının şaxələndirilməsi, rəqəmsal ticarət sahəsində görülən işlər barədə məlumat verilib, dayanıqlı və rəqabətədavamlı turizm sektorunun inkişafı, kənd təsərrüfatında məhsuldarlığının artırılması və davamlı ərzaq təhlükəsizliyinin təmin edilməsi, eləcə də yoxsulluğun azaldılması istiqamətlərində İƏT üzvü olan ölkələrlə əməkdaşlıq qeyd olunub.

Qeyd edək ki, 1981-ci ildə Məkkədə keçirilmiş İƏT-in 3-cü sammitində yaradılmış COMCEC çoxtərəfli iqtisadi və ticarət əməkdaşlığı üzrə əsas platformadır. İƏT-in 4 daimi komitəsindən biri olan COMCEC-in tərkibində 6 sahəvi (ticarət, maliyyə, nəqliyyat və kommunikasiya, kənd təsərrüfatı, turizm və yoxsulluğun azaldılması) işçi qrupu fəaliyyət göstərir.

Hər il İƏT-in iqtisadi və ticari inkişaf sahələrində fəaliyyətlərini nəzərdən keçirmək üçün toplanan COMCEC-in dekabrın 2-dən 5-dək davam edən budəfəki sessiyasında təşkilata üzv dövlətlərin ticarət və iqtisadiyyata məsul nazirləri, həmçinin qurumun təsisatları və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Tədbirdə COMCEC çərçivəsində elektron ticarət və investisiya, kənd təsərrüfatı, nəqliyyat, rəqəmsallaşma, turizm və maliyyə inkişafı, yoxsulluğun azaldılması və digər sahələrdə müxtəlif layihələrin icrası vəziyyəti nəzərdən keçirilib. Bununla yanaşı, sessiya çərçivəsində "Halal sertifikatlarının qlobal səviyyədə tanınması" və "Qlobal mübahisələrin alternativ həlli" mövzularında panel iclaslar keçirilib.

Yeri gəlmişkən, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra üzv olmaq üçün müraciət etdiyi ilk beynəlxalq təsisatlardan biri də İslam Əməkdaşlıq Təşkilatı olub. Ölkəmizin İƏT-ə tamhüquqlu üzvlüyü isə 1991-ci ilin dekabrın 8-də qurumun dövlət və hökumət başçılarının iştirakı ilə Dakarda keçirilmiş 5-ci konfransında rəsmiləşib. Həmin vaxtdan etibarən təşkilat ölkəmizin beynəlxalq hüquqlarının dünya müstəvisində tanıdılması sahəsində bir sıra vacib sənədlər qəbul edib. 1992-ci ilin sentyabr ayında BMT Baş Assambleyasının növbəti sessiyası zamanı İKT-yə üzv dövlətlərin xarici işlər nazirlərinin ənənəvi koordinasiya görüşünün yekun sənədində "Ermənistan–Azərbaycan münaqişəsinə dair" müvafiq maddənin salınması, bir il sonra isə Kəraçidə keçirilmiş XXI konfransında "Ermənistan və Azərbaycan arasında münaqişə" adlı qətnamənin qəbul edilməsi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Qurum sonrakı illərdə də Ermənistanın ölkəmizə qarşı apardığı təcavüzkar siyasətə qarşı bir sıra mühüm sənədlər qəbul edib.

Hərtərəfli siyasi dəstəkdən savayı, qurum ötən müddətdə Azərbaycanın İslam dünyasının müxtəlif iqtisadi strukturlara inteqrasiyasına yaxından kömək göstərib. Bu baxımdan 1992-ci ildə Azərbaycanın İslam İnkişaf Bankına (İİB) üzvü seçilməsini xüsusi qeyd etmək lazımdır. Ölkəmiz həmin vaxtdan bu beynəlxalq iqtisadi təşkilatla sıx əməkdaşlıq edir. İİB, ilk növbədə, Qarabağ münaqişəsinə görə qaçqın və məcburi köçkün düşmüş azərbaycanlılara maliyyə və humanitar yardımlar göstərib. Əlaqələr inkişaf etdikcə Azərbaycan İİB ilə kənd təsərrüfatı, infrastruktur, neft və qaz, su təchizatı, sənaye və müxtəlif sosial sahələr üzrə layihələrin maliyyələşdirməsi istiqamətində əməkdaşlığını davam etdirib.

Hazırda Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının müxtəlif qurumları – ICESCO, İslam İnkişaf Bankı, İslam Konfransı Parlament İttifaqı, İslam Konfransı Gənclər Forumu və s. ilə fəal əməkdaşlıq edir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Macarıstanla tərəfdaşlıq yeni mərhələdə

*Ticarət dövriyyəsi 100 milyon dollara yaxınlaşır*

**Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto mediaya müsahibəsində Azərbaycan–Macarıstan iqtisadi-ticari əməkdaşlığının sürətlə inkişaf etdiyini, cari ilin 8 ayında iki ölkə arasında ticarət dövriyyəsinin 100 milyon dollara yaxınlaşdığını, bu göstəricinin əvvəlki dövrlərlə müqayisədə daha çox olduğunu bildirib.**



P.Siyarto daha sonra ölkəsinin Azərbaycana investisiya qoyuluşuna daim maraq göstərdiyini də vurğulayaraq enerji içkiləri istehsalçısı "Hell" şirkətinin respublikamıza 211 milyon dollar sərmayə yatırdığını, bundan başqa, Macarıstanın ən böyük əczaçılıq müəssisələrindən biri olan "Richter"in Azərbaycanla imzaladığı istehsal müqaviləsinə əsasən, gələcəkdə respublikamızda istifadəyə veriləcək zavodda tibbi və əczaçılıq məhsullarının hazırlanacağını da diqqətə çatdırıb.

Yeri gəlmişkən, bu gün ölkələrimiz arasında iqtisadi əlaqələrdə davamlı inkişaf özünü qabarıq büruzə verir. Azərbaycanda 21 Macarıstan investisiyalı şirkətin fəaliyyət göstərməsi, bu ölkənin respublikamıza 1,1 milyard dollar məbləğində, Azərbaycanın isə dost ölkəyə 18,1 milyon dollar həcmində investisiya yatırması bunun məntiqi nəticəsidir.

Bu faktlar Azərbaycanla Macarıstan arasında iqtisadi-ticarı əlaqələrin yeni inkişaf mərhələsində uğurla inkişafını göstərir. Bu, özünü tərəflər arasında əmtəə dövriyyəsinin həcminin dinamik şəkildə artmasında daha qabarıq biruzə verir. Bundan başqa, nəqliyyat, tranzit və logistika sahələrində də əməkdaşlıq daim diqqətdə saxlanılır. Ələt Azad İqtisadi Zonası və Macarıstan İxracın Təşviqi Agentliyi arasında Anlaşma Memorandumu imzalanması, həmçinin dəmir yolları vasitəsilə artıq Macarıstandan Azərbaycana, eyni zamanda, əks istiqamətə yüklərin ötürülməsinə başlanılması, dost ölkənin "Wizz Air" şirkətinin Bakı və Budapeşt şəhərləri arasında birbaşa aviareyslərin həyata keçirməsinə başlaması bunun bariz ifadəsidir.

Macarıstan şirkətləri Azərbaycanın işğaldan azad edilən ərazilərində reallaşdırılan bərpa-quruculuq prosesinə də ciddi maraq göstərir, bununla əlaqədar ölkəmizə müvafiq layihələr təqdim edir. Döst dövlət düşməndən azad olunan torpaqlarımızda minatəmizləmə əməliyyatında da dəstəyini əsirgəmir. Macarıstanın bu məqsədlə Azərbaycana 25 min avro ianə etməsi də bunun əyani nümunəsidir.

İkitərəfli iqtisadi əməkdaşlıqda enerji ixracına daha çox üstünlük verilir. Dost ölkənin "MVM CEEnergy", respublikamızın isə SOCAR şirkətləri arasında imzalanan müqaviləyə əsasən, cari ilin sonunadək Macarıstana 100 milyon kubmetr qaz tədarük etmək nəzərdə tutulur. Ümumiyyətlə, bu ölkə respublikamızdan ildə 2 milyard kubmetr qaz idxal etməyi planlaşdırır. Yunanıstan-Bolqarıstan İnterkonnektoru (IGB) istifadəyə verildikdən sonra isə daha 5 Avropa ölkəsinin, o cümlədən Macarıstanın da Azərbaycan qazını idxal etmək imkanlarının genişlənməsi həmin göstəricinin reallaşacağına əminlik yaradır.

Xatırladaq ki, Cənubi Qaz Dəhlizinin (CQD) bu gün ən əhəmiyyətli hissəsinə çevrilən IGB-nin ötürmə gücünün 3,5 milyard kubmetrdən 5 milyard kubmetrədək artırılması Macarıstan, Serbiya, Slovakiya, Ruminiya, Şimalı Makedoniya kimi ölkələrin də Azərbaycandan daha çox qaz almasına və ya yeni enerji əməkdaşlığına başlamasına imkan yaradır. Qeyd edək ki, dost dövlət CQD-nin təşəbbüsünü daim dəstəkləyir və bu layihəyə qoşulmaqla bağlı marağını daim diqqətə çatdırır. Məhz elə buna görədir ki, qarşı tərəf CQD-nin Məşvərət Şurasının illik Nazirlər görüşlərində bir qayda olaraq nazir səviyyəsində təmsil olunur.

Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıqda ötən il dekabrın 17-də Buxarestdə imzalanan Azərbaycan, Macarıstan, Ruminiya və Gürcüstan Hökumətləri arasında "yaşıl enerji" sahəsində strateji tərəfdaşlığa dair müvafiq saziş xüsusi yer tutur. Həmin tarixi sənədə əsaslanılaraq adları çəkilən ölkələr arasında "yaşıl enerji"nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi ilə bağlı layihənin icrası istiqamətində səylər hazırda uğurla davam etdirilir. Bununla da 1200 kilometr uzunluğunda dünyanın ən uzun sualtı kəmərinin tikintisi planlaşdırılır.

Hazırda Azərbaycan, Gürcüstan, Ruminiya və Macarıstan arasında "yaşıl enerji" layihəsinin həyata keçirilməsinə məsul Birgə Müəssisənin tezliklə yaradılması, tezliklə texniki-iqtisadi əsaslandırma prosesinin yekunlaşdırılması nəzərdə tutulur. Həmçinin bu enerji dəhlizi ilə Mərkəzi Asiyadan elektrik enerjisinin ötürülməsi üzrə Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında da əməkdaşlığa başlanılması planlaşdırılır. Bir sözlə, "yaşıl enerji" dəhlizinin genişləndirilməsi və bərpaolunan enerjinin bu nəhəng infrastrukturla nəqlinin Avropanın enerji təchizatının diversifikasiyasını reallaşdırmaqla enerji təhlükəsizliyinə töhfə verməsi qarşıya önəmli vəzifə kimi qoyulur.

Bu gün bir neçə ölkəni, iki dənizi birləşdirən marşrutlarla Xəzərin "yaşıl enerji" potensialını Avropada enerji təhlükəsizliyinin gücləndirilməsinə və təmiz enerji keçidinə yönəldən strateji layihənin icrasının sürətləndirilməsi xüsusi diqqətdə saxlanılır. Bütövlükdə bu layihə Azərbaycanın "yaşıl enerji"nin təchizatçısına çevrilmək planlarının tərkib hissədir.

Bu dəhlizlə 4 QVt həcmində "yaşıl enerji"nin ixracı məqsədilə dənizdə sektorlar müəyyənləşdirilib, quruda ərazilər ayrılıb və növbəti proseslərə start verilib. Hazırda isə bu məqsədə çatmaq üçün bərpaolunan mənbələrdən enerji istehsalı, bu enerjinin ötürülməsi və satışı istiqamətlərində sıx koordinasiya olunmuş fəaliyyətin gerçəkləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilir.

"Yaşıl enerji" layihəsinin gerçəkləşməsi isə region və Avropa bazarları arasında elektrik enerjisinin ixracı imkanlarını genişləndirəcək, eyni zamanda, Xəzər dənizinin respublikamıza aid sektorundakı zəngin külək enerjisi potensialı Avropanın enerji təhlükəsizliyinin şaxələndirilməsini gerçəkləşdirəcək.

Bütün bu deyilənlərdən belə bir qənaət hasil olur ki, Azərbaycanla Macarıstan arasında əməkdaşlıq təkcə qaz tədarükü, eləcə də "yaşıl enerji"nin inkişafı və təchizatı ilə məhdudlaşmır. Hər iki ölkədə sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, ticarət və s. sahələrdə də əlaqələrin gücləndirilməsi üçün əlverişli şərait var və bu potensialın reallaşdırılması məqsədilə zəruri tədbirlər görülür. Bu isə Azərbaycan–Macarıstan əlaqələrinin getdikcə genişlənməsini, iqtisadi sahədə yüksək nəticələrin əldə edilməsini şərtləndirir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Azəri – Mərkəzi – Şərqi yatağında ilk quyu

**Dünən yeni Azəri–Mərkəzi–Şərqi (ACE) platformasında ilk hasilat quyusunun qazılmasına başlanılıb. Bu barədə XQ-yə BP şirkətindən məlumat verilib. Məlumatda bildirilir ki, bundan əvvəl cari ilin avqust ayında Bayıl tikinti-quraşdırma sahəsindən dənizə yola salınmış ACE platformasının üst modullarının dənizdə bütün quraşdırma işləri və istismar sınaqları təhlükəsiz şəkildə tamamlanıb.**



Quyunun ümumi dərinliyinin 3188 metrədək olacağı planlaşdırılır və bu dərinliyə çatmaq üçün qazma işlərinin təxminən üç ay çəkəcəyi gözlənilir. ACE platformasında ilk hasilat quyusunun qazılmasına başlamaqdan məmnun olduqlarını bildirən BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyib: "Bu, bizə 2024-cü ilin əvvəllərinə nəzərdə tutulmuş ilk ACE neftinin əldə olunmasına imkan verəcək. Qazma proqramının təhlükəsiz və etibarlı şəkildə həyata keçirilməsini təmin etmək üçün geniş hazırlıq işləri aparmışıq və bütün bunların əsasında bu sahədə olan təcrübəmiz, innovativ yanaşmalar, eləcə də avtomatlaşdırılmış proseslər və qabaqcıl texnologiyalardan geniş istifadə durur. ACE platformasında bu ilk hasilat quyusunu təhlükəsiz, səmərəli və qrafikə uyğun şəkildə tamamlayacağımıza inanırıq."

***XQ***



# Orta Dəhlizdə konteyner daşımaları artıb

**Bu ilin yanvar-noyabr aylarında Orta Dəhlizdə Azərbaycandan tranzit keçməklə Qərb-Şərq istiqamətində konteyner daşımaları əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,3 dəfə artıb.**

"Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti olan "ADY Konteyner" MMC-dən bildirilib ki, Macarıstanın paytaxtı Budapeştdə "Avropa İpək Yolu Sammiti"ndə iştirak edən "ADY Konteyner"nin nümayəndəsi Rəşad Məcidov tədbirdə ölkəmizin Orta Dəhlizdəki əhəmiyyəti, dəhlizin funksionallığının, rəqabətliliyinin artırılması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Qeyd edək ki, sammitdə Avrasiya məkanındakı hazırkı geosiyasi durumda Orta Dəhlizin digər alternativ marşrutlara nisbətən üstünlükləri və dəhliz üzrə kompleks logistik həllər müzakirə olunub. Həmçinin, bu marşrutun Çin, Mərkəzi Asiya, Azərbaycan və Avropa ölkələri arasında ticarət dövriyyəsinin artmasında xüsusi rolu vurğulanıb.

***XQ***

# Vergisiz "ƏDV geri al"

**Milli Məclisin dünən keçirilən iclasında Vergi Məcəlləsinə nəzərdə tutulan dəyişikliklə ölkə vətəndaşlarının "ƏDV geri al" mexanizmi üzrə əldə etdiyi gəlirlərin vergidən azad olunması qanuniləşib.**

Qeyd edək ki, bu il və əvvəlki dövrlərdə də bu gəlirlərə vergilər tətbiq olunmurdu, çünki dövlət bu sahədə təşviq siyasəti həyata keçirirdi. Vergi Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, həmin gəlirlərin vergidən azad olunması artıq qanuniləşir və onun hüquqi bazası formalaşır.

Xatırladaq ki, ƏDV-nin geri qaytarılması layihəsi üzrə ticarət və ictimai iaşə obyektlərində, tibb müəssisələrində və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərə ödənilmiş ƏDV məbləğinin nağdsız ödənişlər üzrə 17,5 faizi, nağd ödənişlər üzrə 5 faizi, işğaldan azad edilmiş ərazilər daxilində mehmanxanalarda (hotellərdə) ödənilmiş ƏDV məbləğinin isə nağdsız ödənişlər üzrə 30 faizi, nağd ödənişlər üzrə 5 faizi geri qaytarılır.

***XQ***

# Qarabağ və Şərqi Zəngəzurda 3 minədək əcnəbi çalışır

**Dövlət Miqrasiya Xidmətinin məlumatına əsasən, işğaldan azad olunan ərazilərdə haqqı ödənilən əmək fəaliyyəti ilə 3 minədək xarici mütəxəssis məşğul olur.**



Həmin şəxslər 15 ölkənin vətəndaşlarıdır. Onların sırasında Türkiyə vətəndaşları çoxluq təşkil edir.

***XQ***

Yasin Qaraməmmədli – 85

# Ustad jurnalist, tanınmış alim, təcrübəli pedaqoq





**Dünən Azərbaycan Mətbuat Şurasında ölkənin media, elm və təhsil ictimaiyyətinin təmsilçiləri Əməkdar jurnalist, tanınmış filosof və təcrübəli pedaqoq Yasin Qaraməmmədlinin anadan olmasının 85 illiyini sayğı-sevgi ilə qeyd etdilər.**

Mərasimi giriş sözü ilə açan Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid yubiliyarın 60 ildən artıq bir dövrü əhatə edən jurnalistlik və elmi-pedaqoji fəaliyyətini, yürdsevər və xeyirxah bir ziyalı olaraq cəmiyyətdə geniş nüfuz qazanmasını öz xalqına ləyaqətli xidmət örnəyi kimi dəyərləndirdi. Azərbaycan teleradio məkanının ilk beynəlxalq şərhçilərindən biri olan Yasin Qaraməmmədliyə milli jurnalistikamız qarşısında çoxillik səmərəli xidmətinə görə AMŞ-nin yubiley diplomonu təqdim edən qurum sədri ona möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzuladı.

Toplantıda bildirildi ki, qədim Borçalının Muğanlı obasında doğulub-böyümüş Yasin Qaraməmmədli Pedaqoji Universitetdə ali təhsidən sonra birneçə il orta məktəblərdə dərs deyib. O, sonrakı illərdə mətbuatda çalışmağa başlayıb, elmi-pedaqoji fəaliyyətini isə məzunu olduğu ali məktəbdə davam etdirib. 1964-cü ildən peşəkar jurnalist fəaliyyətinə Baş Mətbuat İdarəsində başlayan istedadlı qələm sahibi az sonra Dövlət Teleradiosuna dəvət edilib, on illər boyu burada tərcüməçi, şərhçi, böyük redaktor və baş redaktor müavini vəzifələrində çalışıb. Yubiliyar çoxillik xidmətlərinə görə "Əməkdar jurnalist" fəxri adına, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, Azərbaycan Prezidentinin Fəxri Diplomuna layiq görülüb.

Yasin Qaraməmmədli elmdə, ali təhsildə olduğu kimi, jurnalistikada da çoxsaylı davamçılarını yetişdirib, onlara uğurlar qazanmaqda hərtərəfli dəstəkçi olub. Toplantıda çıxış edənlərin əksəriyyəti də elə ustad ziyalının tələbələri, filosof və jurnalist davamçıları oldu.

Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədli, AMŞ-nin Ahıl Jurnalistlər Məclisinin sədri Tahir Aydınoğlu, Əməkdar jurnalistlər İlyas Adıgözəlli, Rəhim Hüseynzadə, Əminə Yusifqızı, İttifaq Mirzəbəyli, media təmsilçiləri Paşa Əmircanov, Şəlalə Məhyəddinqızı, Dilşad Tahirqızı, Səyavuş Hüseynli, Arzu Bayramova, Mehman Vəliyev, Tofiq Rüstəmli, Tamxil Ziyəddinoğlu, Şəfayət Əliyev, alim-pedaqoqlar Əlisa Əhmədov, Rafail Əhmədli, Mütəllim Rəhimli və başqaları Yasin Qaramməmədlini fədakar jurnalist, zəkalı və yüksək əxlaqlı müəllim, milli düşüncəli filosof kimi səciyyələndirdilər.

Mərasimdə belə bir arzu da səsləndi ki, yubiliyar çoxsahəli fəailyəti ilə bağlı zəngin xatirələrini yazıb, yeni nəsillərə örnək olan bir həyat yaşamış, təcrübəli bir ziyalının həyat hekayəti kimi təqdim etsin.

Sonda Yasin Qaramməmədli toplantı iştirakçılarına xoş sözlərə və keçdiyi ömür yoluna verdikləri yüksək dəyərə görə təşəkkürünü bildirdi. O, ölkəmizin Qarabağ qələbəsini görməsini talenin ən xoş qisməti adlandırdı, xalqımıza layiq olduğu daha xoş günlər arzuladı.

***T.RÜSTƏMLİ***
**XQ**

# Fransa müstəmləkəsində fransızsayağı zorakılıq

*(əvvəli 1-ci səhifədə)*

Nəzərə alaq ki, bu xoşagəlməz olay – jurnalistin fəaliyyətinin zorakı üsullarla məhdudlaşdırılması, nəinki Yeni Kaledoniyadakı, ümumən digər fransız müstəmləkələrindəki, habelə Fransanın özündəki nümayiş və mitinqləri işıqlandıran xarici media təmsilçilərinin təhlükəsizliyi məsələsini aktuallaşdırmaqdadır".

Mətbuat Şurası Yeni Kaledoniya polisinin AZƏRTAC-ın əməkdaşı Aygün Həsənovaya qarşı klassik diktatura quruluşlarının fəaliyyət dəst-xəttinə xas hərəkət və davranışını qətiyyətlə pisləyib və beynəlxalq təşkilatları, o cümlədən, beynəlxalq media qurumlarını baş vermiş hadisəyə münasibətdə susqun qalmamağa çağırıb. Şura bu qənaətdədir ki, azərbaycanlı jurnalistin üzləşdiyi anti-insani hərəkətə layiqli hüquqi qiymətin verilməməsi cəzasızlıq mühiti formalaşdırır. Belə bir mühitin mövcudluğu isə oxşar hadisələrin təkrarı üçün presedent yaradır. "Ona görə də, bütövlükdə, Makronun rəhbərlik etdiyi fransız diktaturasının mediaya, jurnalistikaya münasibətdə qəddarlıqdan əl çəkməyə məcbur edilməsi şərtdir. Bu şərt isə yalnız mütərəqqi ictimaiyyətin səfərbərliyi, etirazı ilə yerinə yetirilə bilər" kimi fikirlərin əksini tapdığı bəyanatda, həmçinin baş vermiş olayın günahkarlarının tezliklə tapılmaları və məsuliyyətə cəlb edilmələri, ümumən, hadisəyə müvafiq hüquqi qiymətin verilməsi tələb edilib.

***

**AZƏRTAC-ın Yeni Kaledoniyaya ezam edilmiş əməkdaşı Aygün Həsənovanın bu ölkənin rəsmi dairələri tərəfindən jurnalist kimi peşəkar fəaliyyətini yerinə yetirməsinə qanuni əsas göstərmədən maneçilik törədilməsini və polis bölməsində saxlanılaraq "arzuolunmaz şəxs" qismində ölkədən çıxarılmasını jurnalistin informasiya əldə etmək hüququnun məhdudlaşdırılması kimi qiymətləndirir və qınayırıq.**

Bu barədə Medianın İnkişafı Agentliyinin bəyanatında qeyd olunub ki, jurnalistin məhz Azərbaycandan gəldiyini əsas götürərək peşəkar fəaliyyətinə müdaxilə edilməsi və polis nəzarəti altında saxlanılaraq təyyarəyə minənədək müşahidə altında olması hadisənin siyasi sifariş olduğunu deməyə əsas verir.

Vurğulanıb ki, bu, Fransada müxtəlif tədbirləri işıqlandıran jurnalistlərin, o cümlədən Azərbaycan media təmsilçilərinin peşəkar fəaliyyətinə maneçilik törədilməsi, onların informasiya əldə etmək hüququnun kobud, qeyri-qanuni üsullarla qarşısının alınmasına yönəlmiş növbəti addımdır.

Bəyanat bu sözlərlə bitir: "Biz dünyada ifadə azadlığının vəziyyətini qiymətləndirmək kimi kifayət qədər geniş və ciddi missiyanı öz üzərinə götürmüş beynəlxalq təşkilatların, jurnalistlərin hüquqlarının qorunması sahəsində ixtisaslaşmış QHT-lərin məsələyə münasibət bildirməsini tələb edirik".

***Ə.CAHANGİROĞLU***
**XQ**

# Qərbi Azərbaycana qayıdış soydaşlarımızın insanlıq haqqıdır



**Dünən Qərbi Azərbaycan İcması "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıdışını təmin etmək: Qlobal kontekst və ədalətli həll" mövzusunda beynəlxalq konfrans keçirib.**

"Azərbaycanlıların Ermənistandan zorla köçürülməsi: tarixi və miqyası" mövzusunda keçirilmiş panel iclasda çıxış edən QAİ-nin sədrinin müavini, Milli Məclisin deputatı Ramil Həsən Qayıdış Konsepsiyasının məqsəd və hədəfləri barədə məlumat verib.

Türkiyə Böyük Millət Məclisinin üzvü Şamil Ayrım Ermənistandan zorla köçürülmüş azərbaycanlıların qayıdış hüququna dəstəyini bildirərək, İcmanın sülhsevər yanaşmasını təqdir edib. AMEA-nın elmi işçisi Nazim Mustafa, ADA Universitetinin əməkdaşı Maksim Qoən, Ankara Universitetinin professoru Yıldız Bozkuş, ABŞ-nin Şimali Karolina Universitetinin professoru Əli Əsgər azərbaycanlıların Ermənistandan zorakı üsullarla qovulması və soyqırıma məruz qalması mövzusunda məruzələrlə çıxış ediblər.

"Qayıdış hüququ və repatriasiya: Hüquqi və siyasi çərçivə" mövzusunda keçirilən ikinci paneldə çıxış edən Yunanıstanın Saloniki Universitetinin hüquq fakültəsinin dekanı Panayotis Qlavinis, İtaliyanın Peruca Universitetinin əməkdaşı Daniel Pommier Vinçelli, İtaliya İnsan Hüquqları Federasiyasının prezidenti Antonio Stanqo, Tirana Jurnalistika peşəkarlığı Mərkəzinin icraçı direktoru Krisafi Ledion çıxışlarında dünyada köçkünlük problemi və qayıdış hüququ mövzularına toxunublar.

"Qayıdış hüququ: nailiyyətlər və praktikada çətinliklər" adlı sonuncu paneldə çıxış edən İndoneziya Üləma Şurasının Beynəlxalq Əlaqələr Komissiyasının sədri Səfir Bunyan Saptomo, "Ortaq Gələcəyə Malik İcma" Pakistan Araşdırma Mərkəzinin icraçı direktoru Xalid Taymur Əkrəm, "Əlcəzair-2" Universitetinin professoru Çakib Benhafri, İordaniya Nazirlər Kabinetinin media müşaviri Mohammed Salah Al Malkavi, Rusiyanın "BRICS və Şanxay Əməkdaşlığı Təşkilatı" İnnovativ Diplomatiya Mərkəzinin baş direktoru Nina Ladıqina-Qlazunova, Macarıstanın Dövlət Qulluğu Universitetinin əməkdaşı Zoltan Eqeresi müxtəlif regional kontekstlərdə qaçqınlıq və məcburi köçkünlük və geri qayıtma halları barədə məruzələrlə çıxış ediblər.

Tədbirdə Qərbi Azərbaycan İcmasının yekun nitqi ilə çıxış edib.

Yekunda Müşahidə Şurasının sədri, professor Misir Mərdanov diqqətə çatdırıb ki, Ermənistandan didərgin salınmış azərbaycanlıların qayıdış hüququnun təmin edilməsi sülh və ədalətin bərqərar olması üçün mühüm şərtdir.

Konfransda Azərbaycandan və 30-dan çox xarici ölkədən 100-dən artıq millət vəkili, ekspert və digər tanınmış şəxslər iştirak ediblər.

**XQ**

# Baş prokuror Sumqayıtda vətəndaşları dinləyib



**Dekabrın 5-də Baş prokuror Kamran Əliyev Sumqayıt Şəhər Prokurorluğunun inzibati binasında Sumqayıt şəhəri, Qubadlı rayonu və digər bölgələrdən olan vətəndaşlarla görüşüb.**

Görüşdə iştirak edən 119 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib.

**XQ**

# Səhiyyə Nazirliyinin qızılca çağırışı

**On yaşa qədər uşaqlar qızılca peyvəndinin hər iki dozasını almalıdırlar.**



Səhiyyə Nazirliyi Azərbaycanda 10 yaşa qədər uşaqların qızılcaya qarşı vaksinasiyasına dair məlumat yayıb.

Məlumatda bildirilir ki, cari ilin əvvəllərindən Avropa regionunda, həmçinin qonşu ölkələr olan Türkiyə, Rusiya, İran, Qazaxıstan və Gürcüstanda qızılca xəstəliyinin alovlanmaları müşahidə olunur.

"Son aylarda digər ölkələrdən gətirilmə hadisələrlə əlaqəli yoluxma halları Azərbaycanın müxtəlif regionlarında infeksiyanın yerli yayılmasına səbəb olub. Ölkə ərazisində qeydə alınmış qızılca hadisələri arasında bəzən risk qrupuna aid uşaqlarda ağırlaşmalar, yanaşı bakterial infeksiyaların inkişafı, gecikmiş müraciətlər və ya yanlış diaqnostika hallarına rast gəlinir.

Uşaqların sağlamlığının qorunması və yoluxma hallarının qarşısının alınması məqsədilə ölkədə qüvvədə olan "Profilaktik peyvəndlər təqvimi"nə əsasən 1 və 6 yaşlarında olan bütün uşaqlar 2 dəfə qızılca, epidemik parotit və məxmərək infeksiyalarına qarşı vaksinasiya olunmalıdırlar.

Peyvəndin 1-ci dozasını vaxtında almayan uşaqlar tez bir zamanda vaksinasiya olunmalı, 6 yaşına çatdıqda isə peyvəndin 2-ci dozasını almalıdırlar.

Hər hansı səbəbdən peyvəndin 2-ci dozasını vaxtında almayan 10 yaşa qədər uşaqlar tez bir zamanda peyvəndin 2-ci dozasını almalıdırlar.

Peyvəndin hər iki dozasını vaxtında almayan 10 yaşa qədər uşaqlar minimum 4 həftə intervalla peyvəndin 1-ci və 2-ci dozasını almalıdırlar.

Uşaqların vaksinasiyası üçün yaşayış yeri üzrə uşaq əhalisinə ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrinə müraciət edilməsi tövsiyə olunur".

**XQ**

# Hərbi Prokurorluq Şəmkirdə tədbir keçirib



**Hərbi Prokurorluq ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Şəmkirdə tədbir keçirib.**

Hərbi prokurorun Mətbuat xidmətinin rəhbəri Firad Əliyev, Hərbi Prokurorluğun Kadrlar şöbəsinin rəisi Elmir Süleymanlı, Şəmkir hərbi prokuroru İlham Babayev və digər çıxışçılar Ulu öndər Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Sonra hərbi qulluqçuların qayğı və problemləri ilə maraqlanılıb, onlarla hüquqi maarifləndirici mövzularda söhbətlər aparılıb.

**XQ**

Xalq TV -nin qonaqları

# “Qarabağ şikəstəsi” – Milli yaddaş himni

## Xalq TV-nin budəfəki qonağı Xalq artisti Mənsum İbrahimovdur

**Ustad sənətkar, ünlü muğam ifaçısı ilə söhbətimizin mövzusu xalqımızın Vətənə dərin bağlılığında, qəhrəmanlıq ruhunun yüksəldilməsində musiqi yaddaşının misilsiz önəmi barədə oldu.**



***– Mənsum müəllim, Qarabağın bəlalı taleyini yaşadığımız ötən 30 ildə “Qarabağ şikəstəsi”, “Yaddan çıxmaz Qarabağ!” nidası itirilmiş torpaqlarımızın nisgilini ifadə etməklə, Qarabağ yaddaşını qoruyub gücləndirməklə yanaşı, həm də xalqımızı qarşıdakı ölüm-dirim savaşına ruhlandırırdı. Sizin də davamlı olaraq dünyanın hər yerində tüğyana gətirdirdiyiniz “Qarabağ şikəstəsi” mənəvi bir savaş aparırdı. Şükürlər olsun ki, bu milli yaddaş himni 3 ildir ki, Zəfər təntənələrimizi zirvə nöqtəsinə yüksəldir.***

– Bu gün biz elə bir qələbə qazanmışıq ki, bundan sonra neçə-neçə illər keçəcək, neçə-neçə nəsillər gələcək – həmişə bu barədə ən yüksək öyünclə danışılacaq. Bu qəhrəmanlıq dastanı dillər əzbəri olacaq. Bu barədə kitablar yazılacaq. Bilirsiniz, sanki, biz bu hadisələrin içərisində olduğumuz üçün bu Zəfərin böyüklüyünü bir o qədər dərk edə bilmirik. Ancaq bir qədər məntiqlə düşündükdə qazanılan qələbənin nə qədər böyük olduğunu anlayırıq.

***– Bu qələbəni xalqımıza qazandıran Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev deyir ki, Qarabağı bizə qaytaran Qarabağdan kənarda doğulan nəsil oldu. O nəsil isə “Yaddan çıxmaz Qarabağ” harayı ilə tərbiyələndi.***

– Həqiqətən, Azərbaycanın igid övladları, gənclərimiz Vətən uğrunda canlarını sipər eləməklə bu unudulmaz tarixi qələbəni bizə bəxş elədilər. Biz həmin qələbəni o gənclərin hünəri ilə, onların canı-qanı bahasına qazandıq. Hamı deyir canım Vətənə fəda olsun. Ancaq zaman gələndə hamı onu bacarırmı? Məhz Azərbaycan gəncləri bunu bacardı. O gənclər ki, onlar Xocalı xatirəsi ilə böyüdülər, şəhidlərimizin abidəsini ziyarət edərək tərbiyələndilər, Birinci Qarabağ müharibəsində iştirak etmiş qazilərin xatirəsi ilə qeyrətə doldular.

Analarımız onları döyüşkən, qorxubilməz tərbiyələndirdilər. Prezident İlham Əliyev də dönə-dönə deyib ki, Azərbaycan anaları böyütdü o igid övladları. Həmin gənclər isə Vətən sevgisi ilə getdilər Qarabağı azad elədilər. Bu çətin və şərəfli işi gələcək nəsilə saxlamadılar. Bu gün bizim tarixi torpaqlarımız geri qaytarılıb. Xalqımız torpaq itkisi töhmətini üstündən atıb. 30 il ərzində Azərbaycan xalqı hamı bir nəfər kimi, öz əməlində bu iş üçün çalışmışdı. Mən özüm bir sənətkar olaraq 30 il əvvəl “Qarabağ muğam qrupu” yaratmışdım. Məhz həmin Qarabağ adı altında biz dünyanın dörd bir yanında “Qarabağ şikəstəsi”, Qarabağı vəsf edən mahnıları ifa etmişik.

Bütün çıxışlarımızda da qeyd edirdik ki, muğam üçlüyümüzün üzvlərinin doğulduğu Ağdam, Fizuli, Zəngilan və digər bölgələr işğal altındadır. Bax, bu cür biz təbliğat aparmışıq. Şükürlər olsun ki, gözlədiyimiz, can atdığımız Zəfər günü gəldi yetişdi. Xalqımız bir yumruq kimi Ali Baş Komandanın ətrafında birləşdi – əsgərimiz ön xətdə, xalqımız arxa cəbhədə. Sonda isə biz torpaqlarımızı düşmən tapdağından azad elədik.

***– Sizin ifanızda “Yaddan çıxmaz Qarabağ!”, sadəcə, bir musiqi harayı deyildi. O bir fəlsəfə, bir çağırış, bir qayıdış, bir Zəfər proqramı idi. Siz o proqrama musiqinin ecazı ilə elə bir ton, elə bir yanğı verirdiniz ki, sanki, insanların qeyrətinə od basılırdı. Bəlkə də Qarabağı azad edən həmin nəsil, o yanğıdan, o alovdan, o qınağdan doğuldu.***

– Bəli, bu belə idi. Lakin həm də bu qınağın cavabı olaraq bizə irad tutanlar olurdu ki, “Qarabağ şikəstəsi”ni hansı günümüzə oxuyursunuz?! Biz isə deyirdik ki, insanların yarasının qaysaq bağlamasına imkan vermək olmaz. O yara unudulmamalıdır. Torpaq, Vətən elə bir anlayışdır ki, insan oradan kənarda yaşaya bilməz. Xatirinizdədirsə, Ağdamın üçdəbirində ümumi əhalinin yarısı – 100 minədək insan məskunlaşdı. Çətin də olsa, dəfələrlə atəş altına düşsələr də insanlarımız öz yurduna yaxın yerdə məskunlaşdı, doğma obasından gələn yellərlə nəfəs aldı. Yəni, demək istəyirəm ki, Qarabağın havasına, suyuna və təbiətinə bağlanan insan başqa yerdə yaşaya bilməzdi.

***– Bax beləcə, 30 illik işğal və erməni təcavüzü bütün Azərbaycanı qarabağlılaşdırdı.***

– İtirilmiş Qarabağ 30 il bütün Azərbaycanın qibləgahına çevrildi. Azərbaycan xalqı üçün o torpaqlar müqəddəs sayılır. Çünki o torpaqda milli qürurumuza vurulan ləkə minlərlə şəhidin qanı ilə yuyulub. Bir də ki, bəli, bütün Azərbaycanda qarabağlı olmayan da özünü qarabağlıdan artıq qarabağlı hesab eləyib. Elə qazanılan qələbənin özülündə də bu birlik, sevgi dayandı.

Bundan başqa, bir məsələyə də toxunmaq istərdim. Biz müharibədə yağmaçı düşmənə qalib gəldik. Torpaqlarımızı mərdliklə azad etdik. Ordumuz düşmənin quldur dəstələri kimi, heç bir mülki şəxsi hədəfə almadı. Silahlı Qüvvələrimiz yaşayış olan heç bir şəhəri artilleriya atəşinə tutmadı. Amma erməni vandallarının Qarabağda dinc insanların başına gətirmədikləri müsibət qalmadı.

Şükürlər olsun ki, torpaqlar azad olduqdan sonra Qarbağa, Ağdama getmək və orada ermənilərin tövləyə çevirdiyi Allah evində azan vermək nəsib oldu mənə. Sonra xarici ölkələrin səfirləri Ağdama dəvət olundu və mən həmin yerdə Qarabağın muğam qrupu ilə birgə kiçik bir konsert verdim. Və biz sonra Şuşaya səfər etdik, orada birinci Xarıbülbül festivalında iştirak etdik. Ansamblın üzvlərindən Elçinə dedim ki, sən hiss edirsənmi ki, biz Cıdır düzündəyik... İnanın ki, baş verənlər bizə yuxu kimi gəlirdi.

Əsas vacib məqamlardan biri isə odur ki, torpaqlar azad edildikdən sonra, sanki, Azərbaycan xalqının əhvali-ruhiyyəsi dəyişdi. Pandemiyadan sonra dünyada və ölkəmizdə olan sıxıntılar, çətinliklər, elə bil, heç olmamış kimi təsir bağışladı. Bütün bunların kökündə isə Vətən müharibəsində qazanılmış qələbə dururdu. O qələbə, sanki, xalqımızı daşlaşmış bir ümidsizlikdən qurtardı. Axı, biz təkcə erməni ilə yox, onun arxasında dayanan namərdlik dünyası ilə üz-üzə gəlmişdik. Bizi ağır bir savaş gözləyirdi.

***– Bu ağır durumun, çətinliyin ağuşunda insanlar başqa heç nəyin deyil, töhmət damğasından qurtulmağın ehtiyacını yaşayırdı, qələbənin acı idi.***

– Təkcə biz yox, xaricdə yaşayan soydaşlarımız da eyni üzüntünü yaşayırdılar. Oradakı insanlar indi nə qədər sevinirlər. Onlar nə qədər xoşbəxtdirlər. İnanın ki, bizdən ikiqat artıq dərəcədə sevinirlər. Çünki onlar yad ölkələrdə, yad millətlərin içində başlarını qaldıra bilmirdilər ona görə ki, dünya bizə qorxaq və aciz xalq kimi baxırdı. İşğalçı bizə həqarətlə baxırdı. Lakin bu qələbə ilə alnımıza yazılmış bu ləkə təmizləndi.

Bu yaxınlarda biz Kubada və Meksikada xarici səfərlərdə olduq. “Qarabağ muğam qrupu” ilə həm Havanada, həm də Mexikoda konsertlər verdik. Artıq biz Qarabağ harayı ilə deyil, Qarabağ zəfəri ilə yaşayırdıq. Mexikoda dostluq parkı açıblar, Azərbaycanın xəritəsinin abidəsini qoyublar. Orada da Azərbaycanın xəritəsini bütöv gördük. Artıq orada Xankəndi, Kəlbəcər, Şuşa – hamısı bir yerdədir. Deməli, dünyada artıq bizim haqlı olduğumuz qəbul edilir. Bizim üçün o mənzərəni, həmin epizodu görmək çox qürurverici oldu. Orada bir Qarabağ abidəsi də var idi. O da Qələbəmizin əks-sədasıdır. Bürtün bunlar bizə Azərbaycan adına fəxarət hissi yaşatdı.

Artıq bizim xaricdəki diaspor nümayəndəliklərimiz və təşkilatlarımız da çox böyük və gözəl işlər görürlər. Demək olar ki, Azərbaycan və Türkiyə diasporası birləşib və bizim bütün tədbirlərimizdə iştirak edirlər. Əllərində Azərbaycan bayraqları hamısı meydanlardadırlar. Şükürlər olsun ki, bu gün bizim sənətimiz də qalibdir.

Bu gün Qarabağda güllə səsi eşidilmir. Bundan sonra inanırıq ki, Qarbağda yalnız sülh və əmin-amanlıq olacaq. Bütün bunların əsasında isə Ali Baş Komandanın yüksək sərkərdəlik bacarığı dayanır. Çünki sərkərdə güclü olanda ordunu bada vermir. Əgər biz birinci Qarabağ müharibəsi ilə İkinci Qarabağ müharibəsini müqayisə etsək görərik ki, 90-cı illərdə təkcə Ağdam 6 mindən çox şəhid verib. Ölkədə isə bu rəqəm daha böyükdür.

İkinci Qarabağ müharibəsində isə itkinin az olması güclü dövlət, iqtisadiyyat və ordu sayəsində mümkün oldu. Bütün bunlar isə Ali Baş Komandanın müdrik siyasətinin bəhrəsi idi. Ayyarımlıq Vətən müharibəsi günlərində Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında sıx birləşərək bu qələbənin qazanılmasına töhfə verdi. Hətta döyüşə getməyən insanlarımız öz kiçik payları ilə – apardıqları isti geyim, ərzaq yardımları ilə ordumuza dəstək olmağa çalışırdılar. Şəhid verən ailələrin isə qələbədə iştirakı və payı misilsizdir. Onların doğmaları Vətənə qurban gedib.

Bizim ailəmizdə də Vətən müharibəsi iştirakçısı var idi. Bu, mənim qardaşım oğlu – şəhid İsrafil İbrahimovdur. Ümumiyyətlə, mənim üç qardaşım Birinci Qarabağ mühatibəsi qazisidir. İsrafilin atası da Birinci Qarabağ müharibəsinin qazisidir. O, gənc yaşlarından deyirdi ki, istəyirəm hərbçi olum, düşməndən qisasımızı alım. Sentyabrın 27-də Vətən müharibəsi başlayan kimi, könüllü olaraq irəli atıldı. O, getdi və 30 gün döyüşdü. Oktyabrın 26-da Laçının Səfiyar kəndində şəhidlik zirvəsinə ucaldı.

***– O torpaqlarımız ki, işğalda olarkən bizim muğamlarımızdan, musiqimizdən də qəlbimizə hüzn-kədər süzülürdü. Sanki, müsiqimizin ruhu işğal olunmuşdu. Gəlin, indi bu gün azad edilmiş o ruhumuzdan söz açaq. Çağlayan muğamımızdan danışaq. Onun daha böyük qəhrəmanlar yetişdirəcəyinə inanaq.***

– Əlbəttə, 30 il ərzində, təbii ki, bizim musiqimiz də işğal altında idi. Sanki, musiqimizin ruhu azad deyildi. Amma buna baxmayaraq, bizim ustadlarımız, musiqiçilərimiz dövlətimizin dəstəyi ilə muğam müsabiqələri, festivallar və müxtəlif tədbirlər keçirirdilər. Çünki Azərbaycanın haqq sözünü biz musiqi ilə dünyaya çatdırırdıq. O dövrdə Ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu Milli Konservatoriya yarandı. 2005-ci ildən başlayaraq, Heydər Əliyev Fondunun rəhbəri, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə muğam televiziya müsabiqələrinə start verildi. Bu muğam müsabiqələri də, sanki, xalqı özünə qaytardı.

Prezident İlham Əliyevin dövründə isə – 2014-cü ildə Milli Konservatoriyanın yeni binasının açılışı oldu. Bu gün bizim Milli Konservatoriyada çox gözəl şərait yaradılıb. Muğamın tədrisi üçün bütün imkanlar var. Bununla yanaşı, muğama bağlı gənclər də çoxdur. Bunun özü çox sevindirici haldır.

Artıq tarixi zəfərimiz hər şeyi öz yerinə qaytarıb. Bu gün hər şey tamamilə dəyişib. Həm də bu dəyişmədə bəzi mahnılarımıza yeni sözlər də əlavə olunub. Məsələn, Qarabağa həsr edilmiş mahnılara məşhur sənətkarlarımızın, qəhrəmanlarımızın adları əlavə edilib: “Cabbarın, Xanın səsi, Arifin xoş nəfəsi, Şuşamızda səslənir Qarabağın şikəstəsi.

Mənim Bəhram Nəsibovun “Qarabağ” mahnısına əlavəm isə belədir: “Vətənimizin neçə qəhrəman övladı var, Surxayı, İsrafili, Mübarizi, Poladı var”. “Şuşanın dağları”, “Qarabağ şikəstəsi” isə Qarabağ zəfərinin himninə çevrilib.

***– Sovet dövründəisə ifrat beynəlmiləlləşmə və yad təsirlər milli musiqimizə öz neqativ təsirini göstərmişdi. Lakin buna baxmayaraq, o dövrdə də kiçik bir qrup muğamı bir milli yaddaş bayarağı kimi yuxarı qaldırmış, onu qoruyub saxlamışdı.***

– Mən deyərdim ki, Ulu öndərimizin hakimiyyətə qayıdışı ilə muğam yeni nəfəs qazandı. Onun qorunub saxlanması və təbliği milli dövlət siyasətinə çevrildi. Xatırlayırsınızsa, Füzulinin 500 illik yubileyi keçirildi. İraqda, Bakıda və bir sıra başqa ölkələrdə Dədə Qorqud dastanının 1300 illik yubileyi də qeyd olundu. Bunlar Ulu öndərin dövründə milli mədəni mühiti öz məcrasına qaytardı.

2004-cü ildən sonra isə Heydər Əliyev Fondunun yaradılması ilə bizim milli musiqimiz, muğamımız yüksəliş dövrü yaşadı. Bunu ona görə əminliklə deyə bilirəm ki, mən bu işin əvvəl günündən bütün Muğam müsabiqələrində münsif kimi iştirak etmişəm. Bugünədək 8 muğam televiziya müsabiqəsi keçirilib, 6 beynəlxalq muğam festivalı təşkil edilib. Bunların da nəticəsində onlarla gənc ifaçı bizim sənətimizə gəlib.

***– Bütün bunların nəticəsi idi ki, necə deyərlər, muğamımız yüksəldi. Azərbaycan öz muğamı ilə Şərq ölkələrinin bayraqdarına çevrildi. Həm də xalqımızın ümidsizliyi əridildi, cəmiyyət qələbə əhvalına kökləndi.***

– İnsanın əhvalını müsiqi qədər ikinci bir sənət yüksəldə bilməz. Musiqi ruhun qidası, yaralı qəlbin məlhəmidir. Biz çalışırdıq ki, çıxışlarımızla xalqımızın qəlbiqırıqlığını sağaldaq. Beynəlxalq aləmdəki çıxışlarımızla sübut olundu ki, muğam Azərbaycanın milli musiqisidir. Onun beşiyi Azərbaycandır. Dünya gördü ki, bu sənəti yaradan xalqın mədəni səviyyəsi necədir. Bu musiqinin kökləri bizim qədim tariximizdədir. Deməli, biz bu torpağın qədim və həqiqi sahibiyik. Artıq bizdə bu sahənin mükəmməl tədrisi və tədqiqi də var. 3 pilləli tədris forması – uşaq musiqi məktəbi, musiqi kolleci və milli konservatoriya sistemi qurulub. Yəni, uşaqlarımız gözünü açandan bu məktəbin içində böyüyürlər.

***– Başqa Şərq ölkələrində də belə tədris varmı?***

– Yox. Çünki bu məktəbin əsasını Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəyli qoyub. Elə muğamımızın da tədrisinin əsasını Üzeyir bəy qoyub. Bu gün həmin məktəb davam edir. Eyni zamanda, Üzeyir bəy muğamı operaya gətirib. Təbii ki, müxtəlif vaxtlarda da təkmilləşmə gedib. Ancaq bu işlərin əsasını Üzeyir bəy qoyub. Bu gün çox sevindirici hallardan biri də odur ki, Azərbaycanda ustad sənətkarlar üçün Milli Konservatoriya bir muğam məbədi rolunu oynayır. Leylilər və Məcnunlar, Aşıq Qəriblər, Koroğlular yetişir.

Yəni, artıq baza var. Dövlətimizin bu sahəyə göstərdiyi diqqət və qayğı sayəsində bu gün bu işlər uğurla həyata keçirilir. Onu da qeyd edim ki, biz həm Qarabağ savaşında, həm digər sahələrdə, həm də muğam məktəbində qalibik. Bunun da başlıca səbəbi arxamızda güclü Azərbaycan dövlətinin və onun müdrik rəhbərinin dayanmasıdır.

Sonda onu da xüsusi qeyd etmək istərdim ki, dövlət başçımızın rəhbərliyi və göstərişi ilə Ağdamda Muğam Mərkəzinin tikilişinə başlanılması sənətə verilən dəyərin növbəti təzahürüdür. Bu, respublikada ən böyük muğam mərkəzi olacaq. Orada neçə-neçə Seyidlər, Cabbarlar, Xanlar, Ariflər, Qədirlər, Səxavətlər yetişəcək. Çünki Ağdam tarixən Qarabağın mədəniyyət mərkəzi rolunu oynayıb. Bu torpağın iqlimi – saf havası və təmiz suyu şirin, şaqraq səsin yetişməsində böyük rol oynayır. Artıq bu torpaq bizimdir. Dünyaya səs salmış Qarabağ bülbülləri öz yuvasına qayıdır. Çünki yaddan çıxmadı Qarabağ!

– Maraqlı söhbətə görə təşəkkür edirik.

***Hazırladı: Tahir AYDINOĞLU***
***XQ***

# “Azərbaycanda din: ən qədim dövrdən bu günədək” kitabı rus dilində nəşr olunub

**Görkəmli yazıçı-publisist, ictimai-siyasi xadim Hidayət Orucovun “Azərbaycanda din: ən qədim dövrdən bu günədək” adlı kitabı rus dilində nəşr olunub. Kitab ilk dəfə 2012-ci ildə Azərbaycan dilində çap edilib.**

Azərbaycan dinşünaslığında dinlərin tarixini, bütövlükdə, özündə əks etdirən ilk fundamental monoqrafiya 4 böyük bölmədən ibarətdir. “Qədim və orta əsrlərdə Azərbaycanda dövlət və din münasibətləri”, “Yeni dövrdə Azərbaycanda dövlət və din münasibətləri”, “Ən yeni dövrdə Azərbaycan Respublikasında dövlət və din münasibətləri” adlı bölmələrdə dövlət-din münasibətlərinin ayrı-ayrı ictimai-siyasi formasiyalar sistemində özünəməxsus keyfiyyətlər qazanaraq böyük intibah dövrü keçməsi, onun müstəqil Azərbaycan Respublikasının timsalında formalaşmış tarixi xronologiyası mükəmməl şəkildə təqdim olunur. Həmçinin nəşr Azərbaycanda dövlət-din münasibətlərinin tarixi, müxtəlif dinlərin yayılması və onların müasir vəziyyəti, o cümlədən ölkə ərazisində mövcud olan dövlətlərin din siyasəti barədə obyektiv məlumatlar əldə etmək imkanı yaradır.

Əsərin böyük bir hissəsi dövlətin həyata keçirdiyi din siyasəti problemlərinin işıqlandırılmasına həsr edilib. Kitabda Ümummilli lider




Heydər Əliyevin müstəqil milli dövlət quruculuğu sahəsində işləyib hazırladığı din siyasəti, dini etiqad azadlığının təmin olunması, milli-mənəvi dəyərlərimizin qorunması, tarixi, dini abidələrimizin bərpası və dini dözümlülük ənənəsinin möhkəmləndirilməsi sahəsindəki xidmətlərindən geniş söhbət açılıb. Həmin siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi istiqamətində atılan addımlara diqqət yetirilib.

Qeyd edək ki, monoqrafiyaya tarixi-dini məbədlər barədə məlumatlar və fotolar da daxildir. Kitabın redaktorları ilahiyyatçı Gündüz İsmayılov, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov, filologiya üzrə fəlsəfə doktoru Elçin Cabbarov, tərcüməçisi isə Azərbaycanın Əməkdar jurnalisti Əli Səidovdur.

Rusdilli oxucu kütləsi üçün nəzərdə tutulan kitab dinlə əlaqəli tədqiqat aparan mütəxəssislər, dinşünaslar, ilahiyyatçılar, eləcə də ali məktəb müəllimləri və tələbələri üçün qiymətli töhfədir.

Kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi ilə Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin “Aqape” dini icması tərəfindən çap olunub.

***XQ***

# Bakıda FIA-nın Baş Assambleyasının iclasları başlayıb



**Bakıda Beynəlxalq Avtomobil Federasiyası (FIA) həftəsi davam edir.**

Dekabrın 5-də səhər saatlarından FIA prezidenti Mohammed Ben Sulayemin iştirakı ilə FIA Baş Assambleyası çərçivəsində iclaslar başlayıb.

Qeyd edək ki, FIA həftəsində iştirak etmək üçün dünyanın müxtəlif ölkələrindən avtomobil təşkilatları, avtomobil idmanının görkəmli simaları Bakıda bir araya gəliblər.

İllik və ya növbədənkənar çağırılan Baş Assambleya FIA-nın ali qərarverici orqanıdır və Beynəlxalq Avtomobil Federasiyasının üzv təşkilatlarını təmsil edən avtoidman federasiyalarından (klublardan), mobillik sahəsində fəaliyyət göstərən klublardan ibarətdir. Hər il fərqli ölkələrdə keçirilən bu tədbirin məqsədi avtomobil idmanı və sənayesi sahəsində müxtəlif mövzuları müzakirə etməkdir.

Ümumilikdə, federasiyanın Bakı tədbirlərində 128 ölkədən gələn nümayəndələr, klub təmsilçiləri, həmçinin onlayn şəkildə tədbirə qoşulan nümayəndələr qatılırlar.

FIA Baş Assambleyasının daxili iclasları dekabrın 8-dək davam edəcək. Dekabrın 8-də isə Heydər Əliyev Mərkəzində FIA Baş Assambleyasının yekun iclası olacaq.

***XQ***

# Qırğız xalqının musiqisi



**Qırğızlar tarixən ən qədim türk ellərinə mənsubdur. “Qırğız” etnonimi hərfi tərcümədə “qırx oğuz”, yəni “qırx tayfalı el” deməkdir. Bu zaman “oğuz” sözü “tayfa” və “tayfaların birləşməsi” mənasındadır.**

İKİNCİ YAZI

Qırğızların etnik tarixi hun, sak və usun qəbilələri ilə bağlıdır. Qırğız tayfaları qədimdən Tyanşan dağlarında və Yenisey çayı ətrafında məskunlaşmışlar. Bu qədim türk qəbilələri e.ə. VII əsrdə köçəri tayfa ittifaqları yaratmışlar.

Hazırda onların müstəqil dövləti – Qırğızıstan Respublikası Mərkəzi Asiyada, okeanlardan uzaq, materik daxilində və yüksək dağlıq regionda yerləşir. Dağlar ölkənin 80 faizini əhatə etdiyi üçün bu ölkəni bəzən “Mərkəzi Asiyanın İsveçrəsi” adlandırırlar. Əzəmətli Tyanşan dağları, füsunkar İssıkkul gölü onun təbiətinin rəmzidir.

Qırğızıstan tarixən ticarət yolları və müxtəlif imperiyaların – çin, fars, ərəb, hind və rus imperiyalarının qovuşduğu əhəmiyyətli bir yer olmuşdur. Ölkənin cənubundakı Oş şəhəri Mərkəzi Asiyanın ən qədim yaşayış məskənlərindən biridir və qədim zamanlardan tanınır.

Qırğızıstan ərazisində VI əsrdə Türk Xaqanlığı mövcud olmuşdur. Bu dövrdə qırğız tayfalarının Səmərqənd və Buxara ilə siyasi və mədəni əlaqələri güclənmişdir. Tarixin sonrakı dönəmlərində qırğızların Böyük Turan mədəniyyətinin inkişafında danılmaz xidmətləri olmuşdur. Lakin bu gün bizim əsas mövzumuz, təbii ki, qırğız musiqisi barədədir.

Qeyd etmək lazımdır ki. qırğız xalq musiqisində əsasən üç janr-üslub istiqaməti formalaşmışdır: musiqili-poetik, instrumental musiqi və epos. Onları akınçılar (aşıqlara bənzər xalq şairləri və ifaçıları), manasçılar (qədim Manas eposunun söyləyicilərinə jomokçular da deyilir), ırçılar (xalq mahnı ifaçıları), komuzçular (üçsimli-dartımlı komuz ifaçıları), kiyakçılar (ikisimli-yaylı kıyak aləti ifaçıları) təmsil edirlər.

Qırğızlar öz musiqisini oxunan ırlara və çalınan küülərə ayırırlar. “Küü” deyəndə xalq çalğı alətləri üçün havalar nəzərdə tutulur. Daha geniş yayılmış musiqi aləti üçsimli yaylı komuzdur. İkisimli mizrablı kıyak və dilli metal özənsəsli alət – temir ooz komuz, habelə ağacdan düzəldilən jıqaç ooz komuz da müasir dövrdə işlək alətlərdir.

Qırğız xalq mahnısı “ır” və ya “obon” adlanır. Obon deyəndə, ilk növbədə mahnı mətnləri, yəni mahnının şeir tərəfi nəzərdə tutulur.

Ən qədim mahnılar sayılan əmək mahnıları qırğızların maldarlıq məişəti ilə bağlıdır. Bu mahnıların böyük əksəriyyətini çoban mahnıları təşkil edir və onların da iki növü vardır. Bunlar “Bek-bekey” (qoyun sürülərini mühafizə edən qızların mahnıları) və “Şırıldan” (ilxıçı oğlanların mahnıları) adlı mahnılardır. Mahnıların hər ikisi öz məzmununa görə əmək prosesinin müşayəti ilə bağlıdır.

Əkinçilik ilə bağlı xalq mahnılarına “Op mayda” misal ola bilər. Həmçinin ovçuluqla bağlı, habelə müxtəlif qadın əməyini əks etdirən mahnılar da mövcuddur.

Mərasim mahnıları içərisində ən geniş yayılanları toy və matəm mərasimi ilə bağlı olan mahnı və ağılardır. Qırğız xalq mahnılarının böyük hissəsini məişət mahnıları tutur ki, onlar həm məzmun, həm də ifadə vasitələri baxımından çox rəngarəngdir. Buraya bir sıra müstəqil janrlar (beşik ırları), uşaq, gənclik mahnıları, lirik, satirik, oyun, məzəli mahnılar daxildir.

Məişət janrları arasında ən zəngin hissəni lirik mahnılar təşkil edir. Onlar da öz növbəsində bir sıra növlərə bölünür: məhəbbət, ailə, təbiət haqqında mahnılar.

Qırğız ənənəvi mədəniyyətində akınların yaradıcılığı böyük yer tutur. Akın istedadlı xalq aşığıdır. O, şairlik, bəstəkarlıq və ifaçılıq istedadına malik, simli musiqi aləti olan komuzda və ya kıl-kıyakda ifa və improvizasiya etməyi bacaran ifaçıdır.

Akınlar mükəmməl yaddaşa, dərin düşüncəyə, artistik istedadına malik olurlar. Oba-oba gəzərək cəmiyyətin mənfi və müsbət tərəflərini aydın görən və hiss edən akınlar bütün bunları öz satirik və tənqidi mahnılarında təcəssüm etdirirlər.

Hər akının özünün rəngarəng repertuarı olur. Burada da onların nüfuzu və bənzərsizliyi özünü büruzə verir. Onların repertuarına epik əsərlər, mahnı-yarışlar (aytıslar), nümunəvi mahnılar, nəsihət mahnıları, təbrik mahnıları və s. daxildir.

Məşhur qırğız akınları içərisində Jaysan Toktokul-ırçi, Toqolok Moldi, Toktoqul Satılqanov və başqalarının adını çəkmək olar.

Bu məqamda xüsusi vurğulamaq lazımdır ki, qırğızların böyük milli sərvəti sayılan “Manas” xalq hikmətinin qızıl xəzinəsidir və burada qırğız xalqının 3 min ildən artıq qədim tarixi və zəngi mədəniyyəti əks olunub. Yeri gəlmişkən, manas sözünün mənası əsl insan, ilk insan mənasındadır.

“Manas” dünyada ən uzun epos hesab olunur. Hazırda bu nəhəng eposun üç hissəsinin 65 yazılı variantı mövcuddur və onlar bir-birindən bitkinlik dərəcəsinə görə fərqlənir. Türk xalqlarının digər eposlarından fərqli olaraq, “Manas” əvvəldən axıra kimi şeirlə söylənilir.

“Manas” janr xüsusiyyətinə görə qəhrəmani eposdur. Əsas mövzu və mərkəzi ideya – qırğız xalqının həyatında baş vermiş ən vacib, taleyüklü hadisələrin açılmasıdır. Burada qırğızların öz azadlığı uğrunda yadelli işğalçılara qarşı mübarizəsindən bəhs olunur və məhz buna görə də eposda döyüş səhnələri əhəmiyyətli yer tutur.

“Manas” eposunun qorunmasında və bu günə kimi gəlib çıxmasında onu nəsildən-nəslə ötürən manasçılar müstəsna rol oynamışlar. Yuxarıda qeyd etdiyimiz kimi, onları xalq arasında “jomokçu” da adlandırırlar.

Manasçıların hekayət forması – instrumental müşayiəti olmayan solo-reçitativdir. Bu zaman hekayətin söyləniş tonu sakit, təmkinli ifadə tərzindən həyəcanlı, yeri gəldikcə coşqun, hətta qəzəbli bir ifa çalarına qədər dəyişir. Bu cür ifa manerası bir aktyorun teatrını xatırladır.

Qırğız epik hekayəti – jırın şeir əsasında 7 hecalı xorey misrası durur. Bu zaman onun çoxlu variantları meydana çıxır ki, bu da təbiidir. Çünki istənilən şifahi xalq yaradıcılığı variantlı inkişaf prinsipinə əsaslanır. Manasçının hekayəti zamanı şeir misralarının sayı müxtəlif olur, qafiyələr isə ardıcıl olmaya bilər. Çox vaxt 6-10 misra bir qafiyə əsasında birləşir ki, bu zaman eyni eyni sözlər təkrarlanır.

“Manas”ın musiqili hekayətinin əsasında 2 növ reçitativ durur: 1) 7 hecalı şeir misralarının dəqiq ritmə malik deklamasiyası; 2) Daha çox şeir misralarının iti templə deklamasiyası. Bu zaman axırıncı hecalar uzadılaraq tələffüz olunur.

Qırğız xalqının etnik musiqisi uzun əsrlər boyu şifahi şəkildə nəsildən-nəslə ötürülmüşdür. Digər türk və ümumən şərq xalqlarından fərqli olaraq (məsələn, özbək, azərbaycanlı və türklərdən) bu musiqiyə məqam mürəkkəbliyi və melizmatik xırdalıqlar, başqa sözlə ənənəvi “şərq ekzotikliyi” səciyyəvi deyil. Bu musiqi melodik üslubuna görə sadədir. Strukturunda yeddi-səkkiz hecalı şeir quruluşunun izləri aşkar hiss olunur.

Qırğız musiqisi diatonikdir, onun əsasında 7 pilləli diatonik ladlar durur, əsasən işıqlı lirik-epik xarakterə malikdir. Lakin canlı ifa zamanı tersiya intervalı gah böyük, gah da kiçik səslənir və bunun nəticəsində eyni havanın ovqatı da dəyişir və bu da qırğız musiqisi 2üçün səciyyəli bir hal hesab olunur.

Qırğız musiqisində əsasən miksolidik (mayor yönümlü), eolik (natural minor) və daha az dorik, nadir halda friqik ladlara təsadüf olunur. Çox vaxt bu ladların oktava quruluşu pozulur ki, bunu da “məsafəarası xromatizmlər” yaradır.

Rus və sovet bəstəkarları qırğız musiqisinə böyük maraq göstəriblər. Belə bir faktı nəzərinizə çatdırmaya bilmərəm. Belə ki, Qırğızıstana səfəri zamanı rus musiqisi ilə qırğız musiqisi arasında dərin bağlılığı yaxşı hiss edən dahi rus sovet bəstəkarı D.Şostakoviç 1963-cü ildə “Rus və qırğız xalq mövzularına Üvertüra” yazmışdır. Başqa xalqların musiqisi əsasında, deməli olar ki, əsər yazmayan Şostakoviçin məhz dahiyanə intuisiyası onu belə bir qırğız üvertürası yazmağa ruhlandırmış və bu gözəl əsər çox qısa müddətdə ərsəyə gəlmişdir.

Burada bir neçə kəlmə də qırğızların musiqi alətləri barədə söz açamağa ehtiyac var. Böyük inkişaf yolu keçmiş qırğız xalqının musiqi alətləri digər türk xalqlarının alətlərinə qohumdur.

Qırğızların ən qədim, işlək və geniş yayılmış musiqi aləti –komuzdur. Komuz həm solo, həm də müşayətçi alətdir və ifa texnikası kifayət qədər yüksəkdir. Oxşar ikisimli alətlərdən fərqli olaraq, qırğız komuzunun üç simi var. Üçsimli olması komuzda çoxsəsli ifaya imkan yaradır ki, bu da qırğız instrumental musiqisinin vacib xüsusiyyətidir.

Qıl-kıyak qazaxların qız-kobizi ilə eynitipli alətdir. İkisimli kamanlı alətdir ki, bu qalın tüklər at tükündən hazırlanır. Qıl-kıyak solo alətdidir və kvarta-kvinta kökünə malikdir.

Qırğızların nəfəs alətləri sırasına çoor, çopo-çoor, sıbızğı, surnay və kərənay daxildir. Dobulbas isə yumru formada olan birtərəfli barabandır. Onun güclü, davamlı səsi hərbi yürüşlərdə və təlimlərdə, yaxud səkral mərasimlərdə siqnal vəzifəsi daşıyır.

***Lalə HÜSEYNOVA,***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor***

**Ulu öndər Heydər Əliyevin 100, Azərbaycan Milli Teatrının 150 illiyi münasibəti ilə Azərbaycan Teatr Xadimləri İttifaqı “Qonaq teatr” layihəsini davam etdirir.**

# Antalya Böyükşəhər Teatrı Bakıda

Layihənin məqsədi bu il yubiley yaşı tamam olan teatrların (əsasən bölgə teatrlarının) tamaşalarını ittifaqın səhnəsində təşkil etməklə, milli mədəniyyət məkanında baş verən yaradıcılıq proseslərini fəallaşdırmaqdan ibarətdir. Layihə çərçivəsində Ağdam, Şəki, Mingəçevir, Sumqayıt, Qazax və Lənkəran teatrlarının, İrəvan Dövlət Azərbaycan Dram Teatrının və Naxçıvan Dövlət Milli Musiqili Dram Teatrının tamaşaları təqdim olunub.

Layihə üzrə ilin son tədbiri bölgələrdən olan teatr deyil, Türkiyənin Antalya Böyükşəhər Bələdiyyəsinin Şəhər Teatrı olub. Bu teatr özünün 40 illiyini həm də Azərbaycan Teatr Xadimləri İttifaqı ilə birgə keçirib. Pərvin Ünalpın "Gecikənlər" ("Gec kalanlar") tamaşasını təqdim edib. Səhnə əsərinin quruluşçu rejissoru Azərbaycan Respublikasının Əməkdar artisti Nofəl Vəliyev XQ-yə açıqlamasında bildirib ki, tamaşanı hələ 2014-cü ildə səhnələşdirib:

–Həmin il “Bir səbət tənhalıq” tamaşasının yaradıcı heyəti ilə Türkiyəyə teatr festivalına getmişdik. Orada məni Antalyada tamaşa hazırlamağa dəvət etdilər. Tamaşanı 1 ay ərzində qurduq, artıq 9 teatr mövsümüdür ki, oynanılır. Təqdimatlardan biri də Almaniyada olub. Truppanın bu günkü oyunu da uğurla keçdi.




Həyatının 30 ilini Antalya Böyük Şəhər Bələdiyyəsi Şəhər Teatrına həsr edən, “Gecikənlər” tamaşasında əsas rolu oynayan aktrisa Hasibə Aygül Özgür Azərbaycana yaradıcılıq səfərindən məmnunluğunu ifadə edib:

– İlk dəfədir Bakıya gəlirəm. Oynadığımız tamaşa eynilə həyatın özüdür. Böyük sevgi ilə qarşılandıq, sevinclə çıxdıq səhnəyə. Tamaşa salonunun dolu olması bir teatr adamı kimi məni çox sevindirdi. Azərbaycan tamaşaçısı tələbkar və sənətə dəyər verəndir.

Teatrın aktrisası Sencan Köymən də eyni duyğuları bölüşərək dedi ki, tamaşaçı alqışları tamaşanı necə oynamağımıza verilən qiymət idi. Sizə hər şey üçün təşəkkür edirik. Nofəl Vəliyevə xüsusi minnətdarlıq düşür, çünki tamaşanı ərsəyə gətirən odur. Ümid edirəm ki, yenə Azərbaycana gələcəyik.

Onu da deyək ki, tamaşadan sonra Antalya Böyükşəhər Bələdiyyəsi Şəhər Teatrı Türkiyə–Azərbaycan mədəni əlaqələrinin inkişafındakı xidmətlərinə görə və yaranmasının 40 illik yubileyi münasibəti ilə Azərbaycan Teatr Xadimləri İttifaqının Diplomu ilə mükafatlandırılıb. Həmçinin teatrın yaradıcı heyəti – Mehmet Özgür, Hasibe Aygül Özgür, Sencan Köymen, Safinaz Özgür, Anıl Şerefloğlu, Selim Turgay Deli, Seyfi Albayrak və Azərbaycan Respublikasının Əməkdar artisti Nofəl Vəliyev fəxri fərmanla təltif olunublar.

Dünən Antalya Şəhər Teatrının Bakıdakı qastrolu ilə bağlı mətbuat konfransı olub.

***RAMİLƏ QURBANLI***
***XQ***

# Milli məfkurəmizin yorulmaz tədqiqatçısı

**Tanınmış tənqidçi, publisist, filologiya üzrə fəlsəfə doktoru, Əməkdar Mədəniyyət İşçisi, “Ədəbiyyat qəzeti”nin baş redaktoru Azər Turanın 60 illik yubileyi Neftçala rayonunda qeyd olunub.**



Mərasimdən öncə Azər Turanın ata ocağı – ədəbiyyatşünas alim mərhum İmamverdi Əbilovun evindəki zəngin şəxsi kitabxanası ziyarət olunub. Ardınca yubilyarın kitablarından ibarət sərgiyə baxış keçirilib və Azər Turan yaradıcılığını əks etdirən videoçarx izlənilib.

Yubiley gecəsində Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev, Milli Məclisin deputatları – akademik Nizami Cəfərov, Xalq şairi Sabir Rüstəmxanlı, yazıçı, Əməkdar Jurnalisti Aqil Abbas, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Alqış Həsənoğlu, tənqidçi, filologiya elmləri doktorları Elnarə Akimova və Qulu Məhərrəmli çıxış edərək, Azər Turan yaradıcılığından söz açıb, ona ən xoş diləklərini yetiriblər. Xalq şairi Nəriman Həsənzadənin yubilyara ünvanladığı videotəbrik səsləndirilib.

Neftçala RİH-in başçısı Mirhəsən Seyidov bildirib ki, Azər Turan imzası ilə ictimai və elmi mühitdə mühüm mövqeyə malik ədəbiyyatşünas, tənqidçi və yazıçıdır. O, həm də Cavidlər ocağının mənəvi varisi kimi qələmə aldığı “Cavidnamə”ləri ilə geniş oxucu kütləsinin rəğbətini qazanıb. Eyni zamanda Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Hadi, Bəkir Çobanzadə, Ömər Faiq Nemanzadə kimi görkəmli şəxsiyyətlərlə bağlı qiymətli əsərlər yazıb.

Sonda Azər Turan çıxış edərək, yubileyi ilə əlaqədar ona göstərilən yüksək ehtirama görə rayon rəhbərliyinə, qonaqlara və Neftçala ictimaiyyətinə minnətdarlığını bildirib.

***Ə.NƏCƏFXANLI***
***XQ***

# Gülhüseyn Hüseynoğlu – “Mücrü”sü dolu yazıçı

**Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Azərbaycan Yazıçılar Birliyi və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Xalq yazıçısı, nasir və ədəbiyyatşünas Gülhüseyn Hüseynoğlunun 100 illik yubileyi münasibətilə ədəbi-bədii gecə keçirilib.**





Gülhüseyn Hüseynoğlunun “Mücrü”, “Ömrümüz boyu”, “Qatar gedir”, “Çətin yol”, “Yana-yana”, “Məhəbbətdirmi bu?”, “Müşfiqin yolu”, “Müsfiq”, “Etiraf”, “Bir ömrün çıraqları” adlı bədii kitabları, monoqrafiyası, dərs vəsaiti və yüzlərcə elmi-publistik məqalələri geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanıb. O, şairliyi, yazıçılığı ilə yanaşı, böyük vətənpərvər olub. Aspiranturada oxuyarkən–1948-ci ildə Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparan gizli təşkilatın yaradıcılarından biri kimi ittiham edilərək, məhkəmə hökmü ilə 25 illik həbs cəzasına məhkum olunub və yalnız 8 il sonra tam bəraət qazanıb. Mikayıl Müşfiqin tədqiqatı ilə geniş məşğul olan Gülhüseyn Hüseynoğlu ilk dəfə nakam şairin yaradıcılıq aləmini, özünəməxsus şair fərdiyyətini dissertasiyasında ətraflı araşdırıb.

AYB-nin sədri, Xalq yazıçısı Anar Rzayev onun taleyində mühüm rolu olmuş Gülhüseyn Hüseynoğlunun istedadlı yazıçı, gözəl pedaqoq, saf ürəkli, sakit təbiətli insan kimi keyfiyyətlərindən bəhs edərək deyib ki, mərhumun işıqlı xatirəsi onu tanıyanların qəlbində hər zaman yaşayacaq.

Xalq yazıçıları Çingiz Adullayev və Elmira Axundova, AYB-nin katibi İlqar Fəhmi, Milli Məclisin Komitə sədrinin müavini Hikmət Babaoğlu, Bakı Dövlət Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Fikrət Şiriyev də Gülhüseyn Hüseynoğlu haqqında kövrək xatirələrini bölüşüblər.

Sonra tədbir iştirakçılarına Mədinə Abdullayeva və Qəmər Məmmədzadənin ifasında Gülhüseyn Hüseynoğlunun şeirləri əsasında “Yuxun şirin olsun” adlı kiçik səhnəcik təqdim olunub. Aktyorlar Firəngiz Babayeva, Gülər Nəbiyeva, Hüseynağa Aslanov, Jalə Novruzova yazıçının şeirlərindən dəyərli nümunələr səsləndiriblər. “Ana” hekayəsinin motivləri əsasında qısametrajlı film də nümayiş olunub.

***XQ***

# Ulu öndərin həyatı səhnədə



**Ulu öndərin Lənkəran Dövlət Dram Teatrında “Heydər Əliyev İli”nə töhfə olaraq şair-dramaturq Qəşəm Nəcəfzadənin “İki iyirmi üç arasında” əsəri əsasında hazırlanmış eyniadlı kompozisiya sənədli teatr estetikasında təqdim olunub.**

Uğurla keçən tamaşada Ulu öndərin nəsillərə örnək həyat və fəaliyyəti, irsi bədii əksini tapıb. Məqsəd Ümummilli liderin müstəqil Azərbaycanın qurucusu kimi xalqımızın tarixində oynadığı rolu bir daha nümayiş etdirmək olan tamaşanın quruluşçu rejissoru Emil Əskərov, rəssamı Fuad Babazadə, musiqi tərtibatçısı Vüqar Fərəcov, qrafik dizayneri Fidan Hüseynzadə, videomühəndisi Şəhriyar Camalbəyli, prodüseri İntiqam Hacılıdır.

Səhnə əsərində rolları Xalq artisti Qabil Quliyev, Əməkdar artistlər Sucəddin Mirzəyev və Zemfira Nəcəfova, aktyorlardan Şarud Mehdiyeva, Miraslan Ağayev, Qızılgül Quliyeva, Allahverən Babayev, Buludxan Buludov, Aynur Əhmədova, Hikmət Cəfərov, Saleh Əzimzadə, Ayşən Əsədova, Emil Rzayev, Məleykə Cəfərova, Gülər Kərimova, Əlirza Şahbazi, Rauf Zeynalov, Təvəkkül Həsənov, Günel Abbaszadə, Aysel Babazadə və Amil İbrahimli ifa ediblər.

Tamaşa yaxın günlərdə Lerik, Biləsuvar, İmişli və digər şəhərlərdə nümayiş etdiriləcək.

***Ə.DOSTƏLİ***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Dünya savaşdan doymur

## Silah satışına tələbat azalmır

**Ukraynada davam edən müharibəyə görə silah sifarişlərinin artmasına baxmayaraq, 2022-ci ildə dünyanın 100 ən böyük hərbi-müdafiə şirkətinin silah satışından əldə etdiyi ümumi gəlir 597 milyard dollar təşkil edib ki, bu da 2021-ci il ilə müqayisədə 3,5 faiz azdır. Bu barədə Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) hesabatında deyilir. İnstitutun ekspertlərinin sözlərinə görə, azalma, əsasən, ABŞ-ın iri şirkət gəlirlərinin azalmasının nəticəsi olub. Bununla belə, silaha tələbatın artması növbəti illərdə satış gəlirlərinin əhəmiyyətli dərəcədə artacağını göstərir.**



SIPRI bildirir ki, Rusiya–Ukrayna münaqişəsi və dünyadakı geosiyasi gərginlik 2022-ci ildə silaha tələbatın kəskin artmasına səbəb olub. Bununla belə, yeni sifarişlər almasına baxmayaraq, bir çox Amerika və Avropa silah şirkətləri Ukrayna müharibəsi ilə daha da şiddətlənən işçi qüvvəsi çatışmazlığı, artan xərclər və tədarük zəncirinin pozulması səbəbindən istehsal gücünü əhəmiyyətli dərəcədə artıra bilməyib. Bundan əlavə, ölkələr ilin sonunda yeni sifarişlər təqdim etdiklərindən tələbatın artması hələlik bu şirkətlərin gəlirlərinə təsir göstərməyib. Eyni zamanda, SIPRI-ın proqnozuna görə, hələ də yerinə yetirilməyən sifarişlər və yeni müqavilələrin sayının kəskin artması göstərir ki, yaxın bir neçə ildə silah satışından qlobal gəlirlər əhəmiyyətli dərəcədə arta bilər. SIPRI qeyd edir ki, bir çox silah şirkəti yüksək intensivlik müşahidə olunan müharibə üçün silah istehsalına keçməkdə çətinlik çəkib: "Bununla birlikdə, xüsusilə, sursat tədarükü üçün yeni müqavilələr imzalanıb ki, bu da 2023 -cü ildə və sonrakı illərdə gəlirlərin artmasına səbəb olacaq".

Bundan başqa, analitiklər vurğulayırlar ki, gəlirlərin azalması, ilk növbədə, ABŞ şirkətləri ilə bağlıdır: reytinqdə yer alan ABŞ-ın 42 şirkəti 2022-ci ildə bir il əvvəl ilə müqayisədə 7,9 faiz az qazanıb. Ancaq analitiklər inanırlar ki, vəziyyət istər-istəməz dəyişəcək: "Biz Ukraynadakı müharibə ilə bağlı yeni sifarişlərin axını görməyə başlayırıq və nəticədə ABŞ-ın bəzi böyük şirkətləri, o cümlədən "Lockheed Martin" və "Raytheon Technologies" yeni sifarişlər alıb. Bununla belə, bu şirkətlərin mövcud sifariş gecikmələri və istehsal gücünü artırmaqda çətinliklər səbəbindən bu sifarişlərdən əldə olunan gəlirin şirkətlərin hesablarında əks olunması çox güman ki, iki-üç il çəkəcək".

Hesabatda qeyd olunur ki, ilk 100-lükdə yer alan Avropa şirkətlərinin gəlirlərində 0,9 faiz cüzi artım qeydə alınıb. Reytinqdə təmsil olunan dörd alman silah istehsalçısı cəmi 1,1 faizlik kiçik artım qeydə alıb. "Rheinmetall", "Hensoldt" və "Diehl" fərdi olaraq gəlirlərini 6-13 faiz aralığında artıra biliblər. Lakin "ThyssenKrupp", əksinə, 2022-ci ildə silah satışından bir il əvvələ nisbətən 16 faiz az qazanıb. Asiya və Okeaniyadan olan silah istehsalçıları isə satışlarını daha sürətlə – 3,1 faiz artırıblar və ardıcıl ikinci ildir ki, ümumi illik gəlirlərinə görə Avropadan olan rəqiblərini qabaqlayırlar. SIPRI-nin hərbi xərclər və silah istehsalı proqramının tədqiqatçısı Syayo Lanın sözlərinə görə, Çin, Hindistan, Yaponiya və Tayvan şirkətləri hökumətin hərbi modernləşdirməyə davamlı investisiyalarından faydalanıblar.

Eyni zamanda, SIPRI qeyd edir ki, daha az texnoloji cəhətdən mürəkkəb məhsullar üzrə ixtisaslaşmış şirkətlər tələbatın kəskin artmasına cavab olaraq istehsal həcmini daha tez artıra biliblər. Buna misal olaraq, Türkiyənin "Baykar" şirkətini göstərmək mümkündür. Qardaş ölkənin bu şirkəti 2022-ci ildə gəlirini təxminən iki dəfə artırmağa müvəffəq olub. SIPRI-nin baş tədqiqatçısı Dieqo López da Silvanın sözlərinə görə, daha az texnoloji mürəkkəb məhsullar üzrə ixtisaslaşmış şirkətlər tələbatın kəskin artmasına cavab olaraq istehsal həcmini daha tez artıra biliblər. Məsələn, "Bayraktar TB-2" pilotsuz aparatının istehsalçısı olan Türkiyənin "Baykar" şirkəti ilk 100-lüyə daxil olub. Xüsusilə qeyd etmək lazımdır ki, "Baykar" şirkətinin silah satışından əldə etdiyi gəlirlər 94 faiz artıb və bu da reytinqdəki bütün şirkətlər arasında ən sürətli artım tempidir.

SIPRI-nin 2022-ci il üçün ilk 100-nə yalnız iki Rusiya şirkəti daxil olub – "Rostex" və Birləşmiş Gəmiqayırma Korporasiyası. Tədqiqatçılar bunu Rusiya müdafiə sənayesinin qeyri-şəffaflığı və mövcud məlumatların olmaması ilə əlaqələndirirlər. Yuxarıda adıçəkilən iki şirkətin silah satışından əldə etdiyi ümumi gəlir 2022-ci ildə 12 faiz azalıb. Analitiklər iddia edirlər ki, bu, Rusiya hakimiyyətinin silah istehsalını artırmaqla bağlı bəyanatlarına ziddir. SIPRI bu ziddiyyəti qismən yüksək inflyasiya və Rusiya silah ixracının azalması ilə izah edir. Mütəxəssislər, həmçinin qeyd edirlər ki, şirkətlər sovet dövründən qalma silahların bərpası ilə bağlı işləri yeni istehsal kimi təqdim edə bilərlər. Eyni zamanda, hesabatların qeyri-şəffaflığı səbəbindən SIPRI-ın hesabatında "Almaz-Anteya" və ya "hava hücumundan müdafiə sistemləri və raketlər kimi müharibə ilə əlaqədar yüksək tələbat olan avadanlıq kateqoriyalarını istehsal edən" Taktiki Raket Silahları Korporasiyası kimi şirkətlər nəzərə alınmayıb. 2022-ci ilin sonunda Rusiya bütün ölkələr arasında silah satışından əldə edilən ümumi gəlirə görə siyahıda 5-ci yeri tutub.

***S.ELAY***
***XQ***

# Rusiya hərbi dəniz qüvvələrini gücləndirir

**Rusiya Hərbi Dəniz Qüvvələrinin (HDQ) təşkilində hərtərəfli dəyişiklik baş verib. Bu barədə Rusiyanın yüksək rütbəli rəsmilərinə yaxın mənbə bildirib.**



Xəbərdə qeyd edilir ki, Rusiyanın dörd donanması və Xəzər flotiliyası Rusiya HDQ-nin komandanı admiral Nikolay Yevmenova tabe edilib.

"Dörd donanma və Xəzər flotiliyası dekabrın 1-də Rusiya Müdafiə Nazirliyi yeni tədris ilinə başlayanda birbaşa HDQ-nin komandanına tabe edildi", – deyə məlumatda vurğulayıb.

Yaxın vaxtlara qədər Qara dəniz, Baltik və Sakit okean donanmaları, habelə Xəzər donanması müvafiq hərbi dairələrə tabe idi, Şimal Donanması isə hərbi dairə statuslu vahid strateji komandanlıq idi.

Mənbəyə görə, Şimal Donanmasının məsuliyyət zonasına daxil olan, Rusiyanın şimalındakı dörd regionda yerləşən quru, hava və hava hücumundan müdafiə qüvvələri yeni yaradılmaqda olan Leninqrad Hərbi Dairəsinə veriləcək.

***XQ***


# Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

## "Heydər Əliyev və Azərbaycan tarixi" kitabının növbəti nəşrinin və "Heydər Əliyev" monoqrafiyasının təqdimatının keçirilməsinin satın alınması" məqsədilə

## TƏKLİFLƏR SORĞUSU ELAN EDİR

Lot – 1. "Heydər Əliyev və Azərbaycan tarixi" kitabının növbəti nəşrinin və "Heydər Əliyev" monoqrafiyasının təqdimatının keçirilməsinin satın alınması" .

Təkliflər sorğusu iştirakçılarına təklif olunur ki,öz təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə, həmcinin portal vasitəsilə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. (əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05).

İştirak haqqı 100,00 manatdır.

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Təşkilat-Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
2. Tender təklifinin qüvvədə olma müddəti zərflərin açılış tarixindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.
3. Tender təklifinin təminatı tender təklifinin qüvvədə olma müddətindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.
4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı.
5. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış.
6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.
7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti.
8. İddaiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd (Statistika Komitəsindən.)
9. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə 19 dekabr 2023-cü il saat 18.00-dək Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana (əlaqələndirici şəxs – Əhməd Məmmədova, telefon- (012) 496-52-05) təqdim etməlidirlər. Həmçinin portal vasitəsilə də təqdim olunmalıdır. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 20 dekabr 2023-cü il saat 10.00-da Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsi, 17 nömrəli ünvanda açılcaqdır.

***Tender komissiyası***


# İsa Həbibbəyli Türkiyə Elmlər Akademiyasında çıxış edib



**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Türkiyə Elmlər Akademiyasının Baş Assambleyasında çıxış edib.**

Türkiyə Elmlər Akademiyası Baş Assambleyasının Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş açılış iclasını TÜBA-nın başqanı, professor Müzəffər Şəkər açıb. AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli yubiley iclasında "Azərbaycan və Türkiyənin inkişafında "Bir millət – iki dövlət" modeli" mövzusunda məruzə ilə çıxış edib.

***XQ***

Xatirələr işığında

# Masallıya getmişdik…



**Həmin günlərdən bəri yarım əsrə bərabər uzun bir dövr arxada qalıb. Daha dəqiq olsun deyə, gördüyünüz fotonun tarixinə dair qısa qeydləri diqqətinizə çatdırım. Masallı, 1975-ci ilin sentyabr ayı.**

"İdman" – "Sport" qəzetlərinin əməkdaşları kimi fotomüxbirimiz Gennadi Malyovla birlikdə Masallının idman həyatı haqqında materiallar hazırlamaq üçün bu rayona ezam olunmuşduq. Orada keçirdiyimiz iki-üç gün ərzində redaksiyanın tapşırığını yerinə yetirərkən bir neçə bədən tərbiyəsi kollektivi ilə yaxından tanış olmaq imkanı qazandıq.

Səfər günlərində Masallı şəhər parkında stolüstü tennis oynamağa da vaxt tapdıq. Həmin saatlarda rayon idmanının, demək olar, bütün "baş qərargahı" ilə birlikdəydik. Şəkildə sağda dayananlar uzun illər ərzində Masallı Rayon Bədən Tərbiyəsi və İdman Komitəsinin sədri vəzifəsində çalışmış Məhbub Ağayev, səhv etmirəmsə, "Məhsul" cəmiyyəti rayon şurasının sədri Sücayət müəllim və məşhur yunan-Roma güləşi ustası, vəfatından sonra hər il yeniyetmələr arasında ənənəvi xatirə turniri ilə yad edilən respublikamızın Əməkdar məşqçisi Nadir Ağayevdir.

Stolüstü tennis görüşündə rəqibim, eləcə də, yanımda dayanmış mütəxəssis, deyəsən, Uşaq-Gənclər İdman Məktəbinin məşqçi-müəllimləri idi. Heç görüşün necə nəticələndiyi də yadımda deyil. Amma bunu vacib məqam sanmayaq. Belə görüşlərdə uduzan olmur, səmimiyyət qalib gəlir. Bir sözlə, ezamiyyət yaxşı keçdi, Gena da, mən də Bakıya Masallının idman həyatının bizdə yaratdığı xoş təəssüratla qayıtdıq.

Bir halda ki, 48 il əvvəl – 1975-ci ilin payızında lentə alınmış fotonun köməyilə o uzaq illərdən xatirələri yada saldıq, Masallının idman ənənələri haqqında da danışaq. Bu rayon həmişə öz bacarıqlı idmançıları – xüsusən də güləşçiləri, voleybolçu və futbolçuları ilə fərqlənmişdir. Burada müasir idman bazaları, o cümlədən Olimpiya İdman Kompleksi fəaliyyət göstərir. Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev və Avropa Olimpiya Komitəsinin ovaxtkı prezidenti Patrik Hikey 2007-ci ilin aprel ayında kompleksin təntənəli açılış mərasimindəki çıxışlarında onun mühüm əhəmiyyətini, Masallı bədən tərbiyəçiləri və idmançıları üçün yaradılmış şəraiti yüksək qiymətləndirmişdilər.

Yerli idman həvəskarları əfsanəvi futbolçumuz Anatoli Banişevskinin adını daşıyan stadionda da çoxlu fərəhli anlar yaşamışlar. Yaxın keçmişdə Masallının "Viləş" komandası Azərbaycan çempionatlarında uğurlu çıxışları, mükafata layiq yerləri ilə diqqəti cəlb edirdi. Komandanın baş məşqçisi, bu ilin əvvəlində 63 yaşında həyatı tərk etmiş məşhur mütəxəssis Qəhrəman Əliyev səmimi və mübariz kollektiv yaratmışdı. "Viləş"in hücumçusu Alay Bəhramov isə ölkə çempionatlarının ən sərrast oyunçularından biri kimi tanınırdı, neçə-neçə dəqiq zərbələrindən sonra azarkeşlərin alqışlarını qazanmışdı. Təəssüf ki, bu gün "Viləş"i Azərbaycan Premyer Liqasının iştirakçıları arasında görmürük. Amma Masallının gözəl futbol ənənələrini özünə qaytaracağına ümidimizi də itirmirik…

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# 7 yaşlı gimnastın ilk uğuru

**Nuray Həsənli Bakıdakı Məktəb-Lisey Kompleksinin 2-ci "N" sinfində oxuyur. 5 yaşından paytaxtdakı "Prospekt" idman klubunda bədii gimnastika ilə məşğul olur. Nuray bu yaxınlarda Dubayda keçirilən "Dunastry Rhithmic Gimnastics Cup" adlı beynəlxalq yarışda alətsiz çıxışına görə birinci, topla isə üçüncü yeri tutub.**



Nuray XQ-nin əməkdaşına bu barədə söz açarkən həyəcanla dedi ki, o, birinci yer tutduğuna görə Azərbaycan himni səslənəndə buna çox sevinib. Təbii ki, məşqçi Samir Səlimzadə yetirməsinin bu parlaq uğurundan heç də az fərəh və qürur hissi keçirməyib.

Samir müəllim deyir ki, Nuray çox istedadlı qızdır, bu sahədə böyük uğurlar qazana bilər. Təkcə məşqçisi deyil, indi çoxları Nurayın gələcəkdə daha böyük və nüfuzlu yarışlarda ölkəmizi layiqincə təmsil edəcəyinə şübhə etmir.

Nuraya idmanın gimnastika növünə sevgi anasından keçib. Belə ki, anası Gülər Rüstəmqızı gimnastika üzrə idman ustalığına namizəddir. Bir çox beynəlxalq yarışlarda yüksək nəticələr nümayiş etdirib.

Gülər xanım deyir ki, qızının gimnastika ilə məşğul olması onu çox sevindirir. Axı, gimnastika sağlamlıq, düzgün qamət və bədən quruluşu deməkdir: "Əlbəttə, gimnastika həm də xoş ovqat, özünə inam və gözəllik bəxş edir.

***XQ***


# B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında istismar olunan lift qurğularına texniki xidmətin göstərilməsinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu üzrə satınalmalar komissiyasının 21 noyabr 2023-cü il tarixli qərarına əsasən "STORM-ENGINEERING" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 266 (30382) 6 dekabr 2023-cü il, çərşənbə


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Maqazin

# Puqaçova bu dəfə Londonu seçib

**SSRİ Xalq artisti Alla Puqaçova Kiprin Limassol şəhərindən İngiltərənin paytaxtına köçəcək. Bu fikir Rusiyanın NTV telekanalında yayımlanan verilişdə səsləndirilib. Onun yaxın vaxtda Londona gedəcəyi gözlənilir.**



Lakin nə Puqaçova, nə də həyat yoldaşı Maksim Qalkin bunu təsdiq, yaxud təkzib edibləр. Xatırladaq ki, məşhur cütlük Rusiya-Ukrayna müharibəsinin başladığı ilk günlərdə İsrailə köçüb. İsrail-HƏMAS müharibəsi başladığı vaxtda isə oradan Kiprə gedib.

*XQ*

İdman xəbərləri

## Paracüdoçularımızın 6 medalı

**Azərbaycan paracüdoçuları Yaponiyanın paytaxtı Tokioda keçirilən Qran-Pri turnirində 6 medal qazanıblar.**



Komandamızın üzvlərindən Şəhanə Hacıyeva (48 kq), Xanım Hüseynova (70 kq), Vüqar Şirinli (60 kq) və İlham Zəkiyev (+90 kq) gümüş medala sahib olublar. Dürsədəf Kərimova (+70 kq), Namiq Abaslı (73 kq) bürünc mükafata layiq görülüblər.

## Qadın millimizin növbəti qələbəsi

**Qadın futbolçulardan ibarət Azərbaycan millisi UEFA Millətlər Liqasında sonuncu matçını keçirib.**



“Dalğa Arena”da keçirilən qarşılaşmada komandamız Farer adalarına 1:0 hesabı ilə qalib gəlib. Rəqib qapısından topu 69-cu dəqiqədə Nigar Mirzəliyeva keçirib.

Bununla da, yığmamız C Liqasının 3-cü qrupunu 16 xalla birinci pillədə başa vurub.

Matçı İsveçdən olan hakimlər briqadası idarə edib.

## Bakıda Beynəlxalq Avtomobil Federasiyası həftəsi

**Bakıda Beynəlxalq Avtomobil Federasiyası (FIA) həftəsi çərçivəsində FIA Baş Assambleyasının iclasları başlayıb.**



FIA həftəsində iştirak etmək üçün dünyanın müxtəlif ölkələrindən avtomobil təşkilatları, avtomobil idmanının görkəmli simaları Bakıda bir araya gəliblər.

Ümumilikdə federasiyanın Bakı tədbirlərində 128 ölkədən gələn nümayəndələr, klub təmsilçiləri, həmçinin onlayn şəkildə tədbirə qoşulan nümayəndələr iştirak edir.

FIA Baş Assambleyalarının daxili iclasları dekabrın 8-dək davam edəcək. Dekabrın 8-də isə Heydər Əliyev Mərkəzində FIA Baş Assambleyasının yekun iclası olacaq.

*Leyla SABİRQIZI*
*XQ*

# Unudulmaz Rəşid Behbudov

**Dekabrın 14-də Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında məşhur müğənni, Xalq artisti, Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Rəşid Behbudovun anadan olmasının 109 illiyi münasibətilə konsert proqramı təşkil olunacaq.**

Konsertdə Rəşid Behbudovun repertuarından mahnılar səsləndiriləcək.

Tədbirdə Filarmoniyanın musiqiçiləri, solistləri ilə yanaşı Bakıdan da incəsənət nümayəndələrinin iştirakı nəzərdə tutulur.

*XQ*



# ŞAR əməkdaşları Almatıda



**N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının (ŞAR) Ulduz atmosferləri fizikası və maqnetizm şöbəsinin elmi işçisi, ŞAR Gənc Alim və Mütəxəssislər Şurasının sədri Aynurə Həsənova və Qalaktikalar və ulduzəmələgəlmə prosesləri şöbəsinin kiçik elmi işçisi Samirə Rəhimli Qazaxıstanın Almatı şəhərində ezamiyyətdə olublar.**

Ezamiyyət zamanı rəsədxana əməkdaşları Əl-Farabi Qazax Milli Universitetinin Fizika və Texnologiya fakültəsi tərəfindən keçirilən “Astronomik müşahidə materiallarının IRAF vasitəsilə emalı və analizi” adlı qış məktəbində iştirak ediblər. Qış məktəbi çərçivəsində onlar universitetdə tətbiq edilən astronomik materialların müasir üsullarla emalı metodikaları və analiz üsullarının öyrədilməsi məqsədilə kurslara cəlb ediliblər.

Rəsədxana əməkdaşları Qazaxıstanın V.Q.Fesenkov adına Astrofizika İnstitutunda və Tien Şan Astronomiya Rəsədxanasında da olublar.

*XQ*

Kosmos



# “Odyssey”in Mars mənzərələri

**NASA-nın Mars “Odyssey” kosmik gəmisi 2001-ci ildən planetin ətrafında dövr edir. Kosmik gəmi qırmızı planetin nəfəs kəsən görüntülərini çəkib. O, həmçinin “Thermal Emission Imaging System” (THEMIS) alətindən istifadə edərək planetin səthinin qlobal xəritəsini yaradıb.**

Arizona Dövlət Universitetindən Jonathon Hill Mars kosmik gəmisi “Odyssey”in “THEMIS” kamerasının əməliyyatlarını idarə edir. “THEMIS” aləti planetin səthindən təxminən 250 mil yüksəklikdən şəkillər çəkmək üçün istifadə olunur. Kosmik gəmi bulud təbəqəsinin altından planetin üfüqünü göstərən 10 şəkil çəkib.

“Odyssey” kosmik gəmisi təkcə Marsın şəkillərini çəkməyib. Bu müddət ərzində kosmik gəmi Marsın iki kiçik peykindən biri olan “Phobos”un şəkillərini də çəkə bilib.

*XQ*

Sağlamlıq

# Limfa – canlı filtr

**Bioloji filtr, orqanizmi virus və bədxassəli hüceyrələrdən qoruyan limfaları təmizləmək sağlamlığın açarıdır. Bunun üçün xüsusi qayda yoxdur, sadəcə düzgün qidalar seçilməlidir.**



Rusiyalı mütəxəssislər və qidalara nəzarət üzrə ekspertlər limfalar üçün ən faydalı qidanı açıqlayıblar. Onlar bildiriblər ki, limfaların sağlamlığı üçün əsasən, qırmızı rəngdə meyvə və tərəvəzlər seçilməlidir. Məsələn, nar, çuğundur, alma, zoğal, moruq, gilas, qırmızı kələm və s. Onlarda çoxlu bioflavonoidlər var ki, toksiki maddə və sərbəst radikalları özünə hopdurub zərərsizləşdirir.

Çiy və ya buxarda bişmiş tərəvəz və giləmeyvələrdə olan liflər həm bağırsağı, həm də limfa sistemini təmizləyir.

Limfa sisteminə həm də maye lazımdır, bu da çiy meyvə-tərəvəzdə olur.

Limfanın sevimli dostları: yaşıl yarpaqlı göyərti, bütün növ kələmlər, kök, bibər, sarıkök, zəncəfil, darçın, istiot, sarımsaq, dəniz yosunu, biyan kökü, təmiz bitki yağları, qoz, çərəz, tumlardır.

Limfaların çirklənməsi, tıxanması müxtəlif səbəblərdən baş verə bilər.

Bu səbəblər zərərli qidalar, ətraf mühit, stress, su azlığı, çox oturmaqdır. Mütəxəssislər sağlam qida qəbulu ilə bərabər, eyni zamanda, hərəkətdə olmağın, açıq havada çox gəzməyin də limfaların təmizlənməsində rolu olduğunu bildirirlər.

*Z.HÜSEYNLİ*
*XQ*

Hava

# Bəzi yerlərdə yağış yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən dekabrın 6-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir.**

Gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Mülayim şimal küləyi əsəcək. Gecə 5-9°, gündüz 10-13° isti olacaq. Atmosfer təzyiqi 770 mm civə sütunundan 764 mm civə sütununa enəcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək, gecə və səhər bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-8°, gündüz 10-15° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-8° isti olacaq.



*Q. QASIMOV*
*XQ*


*✓ 2023-cü ildə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin 12 saylı Ərazi Vergilər Baş İdarəsi tərəfindən hüquqşünas Məhsəti Sahib qızı Əlizadənin adına verilmiş AR seriyalı, 054979 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

*✓ 2015-ci ildə “Zəngi” Liseyi tərəfindən Əkbər Elmir oğlu Süleymanzadənin adına verilmiş tam orta təhsil haqqında A seriyalı, 421614 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.*



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3211
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00